*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

26 iyul 2024-cü il №25 (9083) www.muallim.edu.az muallim@media.edu.az


**2023-2024-cü tədris ili üzrə məzunlar qızıl və gümüş nişanla təltif ediliblər**

# Azərbaycan xalqı özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı

**Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

## İlham Əliyev Bakıda Zəfər parkında aparılan tikinti işləri ilə tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Zəfər parkında aparılan tikinti işləri ilə tanış olub.

"PMD Projects" şirkətinin direktoru Nəriman Topçıbaşev parkda görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Sərəncamdan dərhal sonra Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihələri hazırlandı və tikinti işlərinə başlanıldı.

Qeyd edək ki, 2023-cü il sentyabrın 27-də Anım Günündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar. Dövlətimizin başçısı və birinci xanım burada görülən işlərlə tanış olublar.

8 Noyabr prospektində inşa olunan Zəfər parkının ərazisi doqquz hektardan çoxdur.

Parkın girişində 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edir. İnşası davam edən tağın hündürlüyü 44 metr, eni isə 22 metrdir.

Parka keçid hissədə 8 Noyabr - Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə Zəfər Gününü və sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.

Zəfər Muzeyinə park ərazisindən iki istiqamətdə giriş olacaq. Sahəsi 9 min 200 kvadratmetr olan muzeyin yan divarında Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan əsgər və zabitlərin adları qeyd ediləcək.

Ziyarətçilər muzeyi gəzdikdən sonra park hissəsinə daxil ola biləcəklər. Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası və parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası da nəzərdə tutulur.

Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri yaradılacaq, oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan Bayrağı dalğalanacaq.






## Dövlət İmtahan Mərkəzinin Müşahidə Şurasının tərkibi təsdiq edilib

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

"Azərbaycan müəllimi" xəbər verir ki, müvafiq sərəncama əsasən, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Müşahidə Şurasının sədri təsdiq edilib.

Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini İdris İsayev, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, maliyyə nazirinin müavini Azər Bayramov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov Müşahidə Şurasının üzvləri təsdiq edilib.

**BİZ QƏRBİ AZƏRBAYCAN QAYIDACAĞIQ**

## YURD sevgisi, QAYIDIŞ amalı

### Vətənpərvər gənc nəsil biliyi, zəkası ilə silahlanıb dünyaya Qərbi Azərbaycan mesajını verir


Bax səh. 5


## "Azərbaycan müəllimi" qəzetinin loqosu yeniləndi

"Azərbaycan müəllimi" qəzetinin yeni loqosunu təqdim edirik.

Milli dəyərlər və təhsil vurğularını özündə əks etdirən bu loqo bir neçə elementi birləşdirir: İnsan, kitab (qəzet), qələm və səkkizguşəli ulduz.

İnsan simvolu: Loqonun ətrafını əhatə edən minimalizə edilmiş bu simvollar həm cəmiyyətə, həm də müəllimə vurğu edir.

Kitab simvolu: Təhsilin əsas atributu olan bu təsvir açıq kitab və qəzetə işarə edir.

Səkkizguşəli ulduz simvolu: Dövlət bayrağındakı ulduzun eynisi olan bu təsvir Azərbaycanda təhsilin önəmini və müəllimlərin milli dəyərlərə bağlılığını göstərmək məqsədilə seçilib. Eyni zamanda bu ulduzun mərkəzdə yer alması Azərbaycan müəlliminin gücünün və missiyasının vacib bir qismini milli dəyərlərimizdən aldığına işarədir.

Qələm simvolu: Həm təhsili, həm də "Azərbaycan müəllimi" qəzetinin məzmununu ifadə edən bu təsvir mətbuata işarə edir.

Beləliklə, 1934-cü ildən nəşrinə başlanmış "Azərbaycan müəllimi" qəzetinin müasir dövrün tələblərinə uyğunlaşdırılması məqsədilə elan edilmiş rebrendinq müsabiqəsinin qalibi bəlli olub. Müsabiqənin qalibi qrafik dizayner Nərmin Fərzəliyevadır. O, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının məzunudur. O həmçinin "Baku Design Academy"ni fərqlənmə diplomu ilə bitirib. Hazırda isə "Maverick" Agentliyində qrafik dizayner olaraq çalışır.

Nərmin Fərzəliyevanı 90 illik tarixin bir parçası olması münasibətilə təbrik edirik!

# SİNİFDƏ DƏ, SƏNGƏRDƏ DƏ QƏHRƏMAN MÜƏLLİMLƏR

## Dinc məktəblilər də mənfur düşmənin gülləsinə tuş gəldilər

**44 günlük müharibədə Vətən uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucalanlar, qazi olub sinfə qayıdan təhsil işçilərinin sayı kifayət qədərdir.**

Ermənistanın ölkəmizə qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi altında işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlayıb. İşğal altında olan torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına azad olunub. Şanlı qələbənin qazanılmasına təhsil işçiləri də öz töhfələrini veriblər. Beləki, II Qarabağ müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda 700-dək təhsil işçisi böyük qəhrəmanlıqla döyüşüb. Müharibə zamanı 20 təhsil işçisi şəhid olub.







### Müharibənin məktəbli qurbanları

Ermənistanın Vətən müharibəsi zamanı Azərbaycanın cəbhə xəttindən çox uzaqda, dinc əhalinin sıx məskunlaşdığı şəhərləri raket atəşinə tutması nəticəsində 12 uşaq həlak olub. Onlardan 10-u məktəblidir:

Fərid İsgəndərov - 14 yaş, Fidan Qurbanova - 14 yaş, Şəhriyar Qurbanov - 13 yaş, Artur Mayakov - 13 yaş, Məryəm Xəlilli - 6 yaş, Orxan İsmayılzadə - 16 yaş, Nigar Əsgərova - 15 yaş, Orxan Xəlilli - 11 yaş, Aysu İsgəndərova - 7 yaş, Şahmalı Rəhimov - 13 yaş.

10 aylıq Nəzrin Əsgərova və 1 yaşlı Mədinə Şahnəzərli də müharibənin körpə qurbanları, şəhidləridir.

### Müharibənin yaralarını daşıyanlar

Bu müharibənin təsirini ən ağır şəkildə hiss edən təhsil işçiləri arasında müharibənin izlərini əzalarında daşıyan qazilər, ağır itkilərinə baxmayaraq ayaqda qalmağa çalışan şəhid ailələri də var. Onlar bu yaraları qürurla daşıyırlar. Məsələn, Biləsuvar rayonundan olan qazi müəllim Cavid Güllərov "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində deyib: "Şagirdlərimə həmişə deyirdim ki, torpaqlarımızı əvvəl-axır müharibə yolu ilə də olsa, qaytaracağıq. Ona görə də şagirdlərimi hərbi hazırlıq dərslərində fəal olmağa çağırırdım. Hər zaman deyirdim, gələcək əsgərlərin özünü bu istiqamətdə yetişdirmələri çox vacibdir. Torpaqlarımızı biz geri aldıq. Birinci Qarabağ müharibəsində mən uşaq idim, 3-4 yaşım olardı. Torpaqlarımızı geri almaq, həmin döyüşlərdə iştirak eləmək arzum olub. Arzuma çatdım".

Humanitar fənlər təmayüllü məktəb-liseyin ibtidai sinif müəllimi, şəhid anası Yeganə Şükürova, sadəcə, övlad yox, həm də şəhid şagirdləri ilə qürur duyur.

Şagirdlərinə sevgisi onu ağrı-acıları ilə mübarizə aparmağa, yeni nəslin tərbiyəsində qoşulduğu bu məsuliyyətli missiyanı davam etdirməyə ruhlandırır: "Liseydəki ilk buraxılışımdan bir şagirdim, tanınmış psixoloq Ruhid İslamlı Vətən müharibəsində şəhid oldu. Onu, öz balamı, yetişdirdiyim şagirdlərimin axırda böyüyüb kimlər olduğunu düşünəndə özümlə qürur duyuram. Görürəm ki, uşaqlarıma Vətənimizi tanıtmışam, ədaləti göstərə bilmişəm. Ona görə hər biri həyatda, karyerada uğurlu insana çevriliblər. Ən əsası, vətənpərvərlər olaraq yetişiblər. Vətən üçün şəhid olan, oğlumla da, özümlə də qürur duyuram".

# "ÖLKƏ TƏHSİLİNDƏ TRENDLƏR"





## 4-cü "Yüksəliş" müsabiqəsinin final mərhələsi keçirilib və qaliblər məlum olub



**İyulun 19-da dördüncü "Yüksəliş" müsabiqəsinin final mərhələsinin açılış mərasimi keçirilib.**

Açılış mərasimində Təşkilat Komitəsinin sədri, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, elm və təhsil naziri Emin Əmrullayev, iqtisadiyyat naziri Mikayıl Cabbarov, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, gənclər və idman naziri Fərid Qayıbov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Qarabağ Universitetinin rektoru Şahin Bayramov, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, müsabiqə qalibləri, media nümayəndələri və finalçılar iştirak ediblər.

Tədbir gənclər və idman nazirinin müavini, İşçi Qrupunun rəhbəri Fərhad Hacıyevin açılış nitqi ilə başlayıb. Fərhad Hacıyev bildirib ki, müsabiqədə iştirak edən namizədlərin əksəriyyəti yeni nəsil idarəçiləridir və bu, ölkəmizdə insan kapitalının inkişafı üçün mühüm göstəricidir.

Digər çıxış edənlər öz növbələrində dördüncü dəfə keçirilən "Yüksəliş" müsabiqəsinin əhəmiyyəti və potensiallı kadrlar üçün yaratdığı fürsətlərdən danışıblar. Onlar müsabiqənin gənclərin inkişafı və liderlik bacarıqlarının artırılmasında mühüm rol oynadığını vurğulayıb, bu şəxslərin potensialından faydalanmaq baxımından dövlət qurumlarının üzərinə böyük məsuliyyət düşdüyünü qeyd ediblər.

Final mərhələsinin ilk günü elm və təhsil naziri Emin Əmrullayev "Ölkə təhsilində trendlər" mövzusunda çıxış edib və finalçıların suallarını cavablandırıb.

Qeyd edək ki, 3 gün davam edən final mərhələsi artıq bitib və qaliblər müəyyən olunub. 118 namizəddən ən yüksək bal toplayan 25 nəfər qalib adını qazanıb.

# Emin Əmrullayev əmək fəaliyyətinə başlayan "Maarifçi"lərlə görüşüb

## 24 gənc "Maarifçi" proqramını müvəffəqiyyətlə bitirib








İyulun 22-də elm və təhsil naziri Emin Əmrullayev Elm və Təhsil Nazirliyi, eləcə də nazirliyin müxtəlif strukturlarında əmək fəaliyyətinə başlayan "Maarifçi" proqramının məzunları ilə görüşüb.

Emin Əmrullayev işə qəbul olunan proqram məzunlarını təbrik edib və onlara peşəkar fəaliyyətlərində uğurlar arzulayıb. Nazir təcrübə müddətində öyrəndikləri bilik və bacarıqların onların karyera hədəflərində mühüm rol oynayacağını bildirib.

Daha sonra elm və təhsil naziri peşəkar iş həyatının reallıqları, müasir əmək bazarının rəqabətqabiliyyətliliyi barədə danışıb, gənclərə gələcək fəaliyyətlərinin səmərəli təşkili ilə bağlı tövsiyələrini verib.

Sonda isə əmək fəaliyyətinə başlayan 9 "Maarifçi" ilə bağlı təqdimat nümayiş olunub.

Qeyd edək ki, Elm və Təhsil Nazirliyi, eləcə də qurumlarında təcrübə imkanları yaradan və 3 ay davam edən "Maarifçi" proqramını 24 nəfər müvəffəqiyyətlə bitirib. Proqramın təşkilində məqsəd elm və təhsil sahəsində insan resurslarının formalaşdırılması, praktiki fəaliyyətlə tələbə və məzunların sahəvi bilik, bacarıqlarının artırılması, onların təhsil sahəsində müasir yanaşmaları öyrənmələri, həmçinin təhsil islahatlarının həyata keçirilməsi prosesinə dəstək göstərmək olub.

# Nazirliyin əməkdaşlarına dövlət təltifləri təqdim edilib





**Prezident İlham Əliyevin 24 iyun 2024-cü il tarixli Sərəncamı ilə Elm və Təhsil Nazirliyinin dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə təltif olunmuş əməkdaşlarına medallar təqdim edilib.**

Elm və təhsil naziri Emin Əmrullayev təltif olunmuş əməkdaşları təbrik edib və onlara uğurlar arzulayıb.

Çıxış edən əməkdaşlar onların əməyinə verilən yüksək dəyərə görə minnətdarlıqlarını bildiriblər.

Sonra dövlət təltifləri təqdim olunub.

Qeyd edək ki, Audit şöbəsinin müdir müavini, Audit sektorunun müdiri Mürşüd Rəşidov, Təhsilin iqtisadiyyatı şöbəsinin Büdcə planlaşdırılması sektorunun baş məsləhətçisi İradə Mirzəhmədova, Daxili nəzarət şöbəsinin müdir müavini vəzifəsini icra edən, Məlumat-təhlil sektorunun aparıcı məsləhətçisi Xəqani Qurbanov, Məktəbəqədər və ümumi təhsil siyasəti şöbəsinin Təhsilin məzmunu sektorunun baş məsləhətçisi Günel Seyidova "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunublar.

# Apellyasiya Şurasının növbəti iclası keçirilib

İyulun 19-da elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə Apellyasiya Şurasının növbəti iclası keçirilib.

İclasda Elm və Təhsil Nazirliyinin Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Mərkəzi Aran Regional Təhsil İdarəsinin İnzibati təşkilat sektorunun baş məsləhətçisi vəzifəsinə namizədlər Tofiq Əsgərov və Əli Cəfərovun, Lənkəran-Astara Regional Təhsil İdarəsinin Tədrisin keyfiyyəti sektorunun müdiri vəzifəsinə namizəd Aydan Bağırovanın müsahibə nəticələri ilə əlaqədar şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyası üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb, 2 şikayətin təmin edilməsi, 1 şikayətin isə təmin olunmaması barədə qərarlar qəbul edilib.

# "Təhsildə könüllü fəaliyyətin təşkili" qrant müsabiqəsinə start verilir

**İyulun 24-dən Elm və Təhsil Nazirliyi tərəfindən qeyri-hökumət təşkilatları üçün "Təhsildə könüllü fəaliyyətin təşkili" qrant müsabiqəsi elan edilir.**

Qrant müsabiqəsinin məqsədi dövlət qeydiyyatına alınmış və təhsil sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarını təhsildə könüllü fəaliyyətin təşkilinə cəlb etməkdir.

Müsabiqənin prioritet mövzuları "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində təhsilə ictimai dəstək, Qərbi Azərbaycana qayıdışla bağlı maarifləndirmə, türk dövlətlərinin təhsil ictimaiyyəti arasında inteqrasiyanın gücləndirilməsi, təhsil müəssisələrində yaşıl dünyanın təşviqi, uşaqların təhsil və təhlükəsizlik hüquqlarının təmin edilməsinə dəstək, peşə təhsilinin təşviqi, elm və təhsil islahatları ilə bağlı ictimaiyyətin maarifləndirilməsidir.

Qrant müsabiqəsində iştirak üçün sənədlərin qəbulu *musabige@edu.gov.az* elektron poçt ünvanı vasitəsilə aparılır.

Sənəd qəbulu üçün son müraciət tarixi 16 avqust 2024-cü ildir.

Müsabiqə ilə bağlı ətraflı məlumatla aşığıdakı link vasitəsilə tanış ola bilərsiniz:

*https://edu.gov.az/upload/elan/2024/07/konullu-fealiyyetinin-teshkili-elan.pdf*

## Həssas yanaşma, vətəndaş məmnunluğu

# Elm və təhsil naziri Xaçmazda vətəndaşları qəbul edib



**İyulun 19-da elm və təhsil naziri Emin Əmrullayev Xaçmaz şəhərində vətəndaş qəbulu keçirib. Qəbulda Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayon sakinləri iştirak ediblər.**

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbul zamanı vətəndaşlar müəllimlərin yerdəyişməsi, məktəb tikintisi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# Sənədlərin rəqəmsallaşdırılmasının əhatə dairəsi genişləndirilir





## “mygov” portalına yeni təhsil sənədləri və məlumatları əlavə olunub

**İyulun 19-da Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi ilə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin birgə brifinqi keçirilib.**

Brifinqdə Elm və Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin sədr müavini Rəşad Xalıqov, Rəqəmsal məhsulların inkişafı departamentinin rəhbəri Vurğun Hacıyev, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz təqdimatlarla çıxış ediblər.

Brifinqdə Azərbaycan Texniki Universitetinə bakalavriat səviyyəsi üzrə sənəd qəbulunun rəqəmsallaşdırılmasından danışılıb. Bildirilib ki, artıq vətəndaşlar sənəd qəbulu prosesini *portal.edu.az* vasitəsilə tam rəqəmsal formada həyata keçirə biləcəklər. Eyni zamanda Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan—Fransız Universitetində (UFAZ) sənəd qəbulunun rəqəmsallaşdırılması ilə bağlı işlərə başlanıldığı vurğulanıb.

Brifinqdə “mygov” portalına daha 6 təhsil sənədi və məlumatın əlavə edilməsi mövzusunda təqdimat da nümayiş etdirilib. Məlumat verilib ki, vətəndaşlar portalda “Peşə təhsili sənədləri haqqında məlumatlarım”, “Ümumi təhsil haqqında məlumatlarım”, “Cari ali və orta ixtisas təhsili haqqında məlumatlarım”, “Cari ümumi təhsil haqqında məlumatlarım”, “Cari peşə təhsili haqqında məlumatlarım”, “Övladlarımın cari ümumi təhsili haqqında məlumatları” bölmələrindən müvafiq təhsil sənədləri və məlumatlarını elektron formada əldə edə bilərlər. Bununla da ümumilikdə 10 təhsil sənədi və məlumatı tam rəqəmsal formada vətəndaşlara təqdim olunur.

Brifinqdə həmçinin qeyd edilib ki, vətəndaşlar təhsil məlumatlarını *“mygov”* tətbiqi üzərindən QR kodu vasitəsilə paylaşmaq, PDF formatında yükləmək, o cümlədən yaranmış problemi “Dəstək” bölməsinə müraciət edərək aradan qaldırmaq imkanına malikdirlər.

Bundan başqa, portalda təhsil məlumatlarının nə vaxt, kiminlə, harada paylaşıldığının tarixçəsinə nəzər yetirməyin mümkünlüyü də əlavə edilib.

*“mygov”* tətbiqinin “Sənədlər” bölməsində tələbə kartının rəqəmsal versiyası da təqdim olunur.

# “Azərbaycanın COP29-a sədrliyi: prioritetlər və gözləntilər”

## “Danışır təcrübə” layihəsinin qonağı xarici işlər nazirinin müavini Yalçın Rəfiyev olub








Xarici işlər nazirinin müavini, COP29 Azərbaycan üzrə baş danışıqçı Yalçın Rəfiyev Elm və Təhsil Nazirliyində “Danışır təcrübə” layihəsinin qonağı olub. Görüşdə “Azərbaycanın COP29-a sədrliyi: prioritetlər və gözləntilər” mövzusunda çıxış edən nazir müavini Elm və Təhsil Nazirliyi, eləcədə tabe qurumlarının əməkdaşlarını maraqlandıran sualları da cavablandırıb.

Xatırladaq ki, sözügedən layihə davamlı inkişaf və müasir çağırışlara hazır olan kadrların yetişdirilməsi məqsədilə həyata keçirilir.

### “Yeni şəraitdə qarşımızda duran əsas hədəflərdən biri gündəlikdə duran daha qlobal məsələlərə Azərbaycanın fəal töhfə verməsidir”

Nazir müavini çıxışında bu ilin noyabrında Bakıda keçiriləcək COP29-un məqsədləri, miqyası və hədəfləri ilə bağlı ətraflı məlumat verib. O, Azərbaycan diplomatiyası üçün COP29 mövzusunun - qlobal iqlim dəyişmələri məsələsinin yeni olduğunu qeyd edib: “30 ilə yaxın münaqişə şəraitində yaşadığımızdan münaqişələrin həlli, təhlükəsizlik istiqamətində daha çox ixtisaslaşmışdıq. Artıq münaqişə bitib, Azərbaycan öz ərazilərini işğaldan azad edib və yeni şəraitdə qarşımızdakı əsas hədəflərdən biri gündəlikdə duran daha qlobal məsələlərə Azərbaycanın fəal töhfə verməsidir”.

### İddia, yoxsa elmi nəticə?

Nazir müavini miqyasına görə ən böyük siyasi tədbir olan COP prosesinə qoşulmanın çətinliklərindən də danışıb. Azərbaycanın 4 ildən artıq Qoşulmama Hərəkatına rəhbərliyini xatırladaraq həmin dövrdə 121 dövlətin bu hərəkata qoşulduğunu, məhz bu amilin Azərbaycanın qlobal proseslərə rəhbərlik edə bildiyi ilə bağlı özünəinam yaratdığını vurğulayıb. Ölkə başçısı İlham Əliyevin dünya miqyasında lider kimi tanınan şəxsiyyət olduğunu qeyd edən nazir müavini bu və bir çox başqa amillərin Azərbaycanın COP29-a sədrliyə namizədliyini irəli sürməsi üçün əsaslardan biri olduğunu deyib: “COP prosesinə qoşulma Azərbaycan diplomatiyasının indiyə qədər qarşılaşdığı ən çətin, ən mürəkkəb prosesdir. Amma eyni zamanda bu, qlobal miqyasda ən siyasiləşmiş prosesdir. Həqiqətən bu miqyasda iqlim dəyişmələri baş verirmi? Çünki bəzi dairələrdə belə fikirlər də səslənir ki, bu, Çinə, onun inkişafına qarşı yönəlmiş prosesdir. Bu fikri müdafiə edənlər hesab edir ki, bu proses Qərb dövlətlərinin sürətlə inkişaf edən Çin sənayesinin sürətini yavaşlatmaq məqsədilə ortaya atılıb. Amma eyni zamanda akademik dairələrdə təsdiq edirlər ki, iqlimdə hər yarım dərəcə dəyişmə, istilik artımı böyük fəsadlara gətirib çıxarır”.

### İqlim dəyişmələrinin fəsadlarını hiss edənlər: Azərbaycanda da əlamətlər var

Y.Rəfiyev iddiaları təkzib edən faktlara da diqqət çəkib. “Bəzi ölkələr üçün bu, məqalələrdə oxuduğu məsələ, bəzi dövlətlər üçün isə ciddi problemdir”, - deyən nazir müavini kiçik ada dövlətləri qrupu və Afrikada qlobal iqlim dəyişmələrinin fəsadlarının çox ciddi şəkildə hiss edildiyini vurğulayıb. O, Azərbaycanda səhralaşma, çayların quruması, dənizin səviyyəsinin enməsinin də bu fəsadlardan olduğuna diqqət çəkib.

### Bakıda keçiriləcək COP29-dan böyük gözləntilər

Qlobal iqlim fəaliyyətinin mərkəzində “Paris sazişi” dayanır. Sazişə görə, qlobal iqlim fəaliyyətinin 3 əsas sütunu var. Əsas sütun qlobal istixana qazlarının emissiyalarının azaldılmasıdır. Paris sazişində müəyyən olunub ki, sənayeləşmənin inkişafından bu yana Yer kürəsi 1.5 dərəcə isinib və bu dərəcənin 2-yə qalxması bir çox ölkələrin yox olması, insanların sağlamlığına birbaşa təsir edən proseslərin getməsidir ki, bunun qarşısı alınmalıdır. Böyük dövlətlər inkişaf etməkdə olan ölkələrə uyğunlaşma üçün yardım göstərməli, mövcud təhlükənin qarşısını almaq üçün tədbirlər görməlidirlər. Bütün bu sütunlar üzrə fəaliyyətin əsasında isə maliyyə dayanır. Ən böyük mübahisələrin, fikir ayrılıqlarının həm də məhz bu vəsaitlə bağlı olduğunu deyən Y.Rəfiyev hazırda üzərində dayanılan 100 milyard dolların tələb olunan məbləğdən çox aşağı olsa da, hələlik bu rəqəmin üzərində dayandığını bildirib. Qeyd edib ki, 15 il əvvəl Kopenhagendə verilən qərara görə, inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrə illik əsasda bu vəsaiti ödəməlidir ki, onlar həm emissiyanı azaltsın, həm də yeni şəraitə adaptasiya olsunlar. Halbuki bu rəqəmin artıq 1-1.5 trilyon olduğuna dair fikirlər də səslənir.

Bakıda keçiriləcək COP29-da 60-a yaxın qərarın qəbulu gözlənilir ki, onlardan biri fikir ayrılıqlarına baxmayaraq, maliyyə məsələsi, digəri isə son 5-6 ildir müzakirələrində bir nəticəyə varılmayan karbon emissiyalarının azaldılması ilə bağlıdır.

Baş danışıqçı illərdir müzakirələri nəticə verməyən məsələlərlə bağlı Bakıda keçiriləcək COP29-dan qərarın çıxacağına dair ümidlidir: “Hər ölkənin 5 ildən bir verdiyi öhdəlik sənədi var. Bu, dövlətlərin son 5 ildə karbon emissiyasını nə qədər azaltdığına, növbəti 5 ildə nə qədər azaldacağına dair bir sənəddir. Fevral ayına qədər ölkələr öz öhdəliklərini elan etməlidirlər. Bu baxımdan bizim əsas müraciətimiz budur ki, istəyirsinizsə, inkişaf etməkdə olan ölkələr öz yenilənmiş öhdəliklərini, emissiyalarını fevral ayına qədər versin, Bakıda qərar qəbul edilməlidir”.

Y.Rəfiyev Azərbaycanın 5 il sonrakı emissiyanı açıqladığını deyib: “Azərbaycan 2040-cı il üçün emissiyanın 35 faiz azaldılması ilə bağlı qarşısına hədəf qoyub. Bu o demək deyil ki, karbon 35 faiz daha az istehsal olunacaq, bu, karbonun udulması mexanizmi yaradılacaq deməkdir ki, bu da maliyyə vəsaitindən asılıdır”.

### COP29-da təhsilə təsir edəcək TƏŞƏBBÜS

Y.Rəfiyev COP29 çərçivəsində Azərbaycanın irəli sürdüyü 14 böyük təşəbbüsündən də danışıb. Onun sözlərinə görə, bunlardan ikisi təhsillə bağlıdır: “Beynəlxalq PISA qiymətləndirilməsinə yaşıl enerji komponentinin əlavə edilməsi və digər ölkələrin də bu prosesə qoşulması ilə bağlı təşəbbüsümüz var. Sözügedən təşəbbüs uşaq və gənclərin iqlim savadlılığının artırılması, onlarda “ömürboyu bacarıqların” formalaşdırılması məqsədi ilə irəli sürülüb. Qeyd edim ki, COP çərçivəsində daha əvvəl belə bir təşəbbüs yer almayıb. Azərbaycanın təşəbbüsü uzunmüddətli irs olaraq qala bilər”.

Nazir müavini Pre-COP tədbirləri çərçivəsində iqlim dəyişikliyi və yaşıl enerjiyə həsr olunan STEAM Azərbaycan Festivalının keçirilməsi və bu təcrübənin gələcəkdə keçiriləcək COP tədbirlərinin bir komponenti olması ilə bağlı ikinci təşəbbüsdən də söz açıb: “23-26 oktyabr tarixlərində Bakı Ekspo Mərkəzində keçirilməsi nəzərdə tutulan pre-COP tədbirində 20-dən çox ölkənin təmsil olunması nəzərdə tutulur. 2021-ci ildən etibarən keçirilən Steam Azərbaycan Festivalı bu il 15 kateqoriya üzrə keçiriləcək ki, onların 12-si iqlim dəyişikliyi, yaşıl enerji kimi mövzulara həsr olunacaq. Uşaq və gənclərlə bağlı bənzər təşəbbüs öncəki COP tədbirlərində yer almayıb”.

### COP29-dan sonra bir sıra məsələlərə yanaşmamız fərqli olacaq

Y.Rəfiyevin sözlərinə görə, COP prosesinə sədrlik sayəsində bəzi regionlara diqqət ayrılmamasının fərqinə varılıb: “Əslində, kəşf etmədiyimiz regionlar var ki, onlarla əməkdaşlıq daha böyük fayda verə bilər. Məsələn, COP çərçivəsində bir çox ölkələrlə ada dövlətləri, Afrika kimi heç vaxt münasibət qurmadığımız ölkələrlə əməkdaşlıq qurduq və bu, imkan verdi ki, gərgin münasibətdə olduğumuz bəzi ölkələrlə münasibətləri yumşaldaq. COP çərçivəsində hamı ilə danışıqlar aparırıq, amma 17 ölkə ilə ayrıca konkret təşəbbüslər, istiqamətlər üzrə dialoq mexanizmimiz var. Əminəm ki, COP29-dan sonra bizim bir çox məsələlərdə yanaşmamız fərqli olacaq”.

### COP29-a hazırlıq komandası

COP29-a hazırlıqlarla bağlı məlumat verən Y.Rəfiyev rəhbərlik etdiyi danışıqçı qrupu barədə məlumat verib. Onun sözlərinə görə, 40 nəfəri diplomatlar, 20 nəfəri ayrı-ayrı sahələr üzrə ekspertlərdən ibarət olan danışıqçılar qrupu müzakirələrdə ev sahibi qismində iştirak edir, nümayəndə heyətlərini bir araya gətirir, onların razılaşa bilmədiyi məsələlərdə ortaq xətt tapmağa çalışıb əlavə platformalar təşkil edir, mürəkkəb vəziyyətlərdə həll yolları təklif etmək kimi bir vəzifənin öhdəsindən gəlməyə çalışır. Bu vəzifənin öhdəsindən gəlmək üçün yaradılan həmin platformalardan biri qeyri-rəsmi müzakirələr platforması olacaq: “Rəsmi bəyanatlarda, müzakirələrdə heç kim fikrini açıq bəyan etmir, qeyri-rəsmi formatlarda diplomatlarla danışmaq daha asandır, bu halda kimin qırmızı xətti haradadır, müəyyən etmək mümkündür”.

Qeyd edək ki, “Danışır təcrübə” layihəsi çərçivəsində bu cür görüşlərin müntəzəm şəkildə təşkili nəzərdə tutulur.

**Ruhiyyə DAŞSALAHLI**

# Ümumi təhsil müəssisələrinin 2023-2024-cü tədris ili üzrə məzunlarının qızıl və gümüş nişanla təltifi haqqında

## Azərbaycan Respublikası elm və təhsil nazirinin əmri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 yanvar tarixli 8 nömrəli Qərarı ilə təsdiq olunmuş “Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş nişanla təltif olunma Qaydası”na və 2023-2024-cü tədris ilində tam orta təhsil səviyyəsi üzrə aparılmış yekun attestasiyanın nəticələrinə əsasən, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2242 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 5.5.10-cu bəndini rəhbər tutaraq **əmr edirəm:**

### 1. Aşağıda adları qeyd edilən XI sinif məzunları qızıl nişanla təltif olunsunlar:

1.1. Paşayeva Nərmin Şahin qızı - Naxçıvan MR Naxçıvan Qarnizonu tam orta məktəb
1.2. Ələkbərova Surə Zülfü qızı - Naxçıvan MR Naxçıvan Qızlar Liseyi
1.3. Bayramova Jalə Əfsəl qızı - Naxçıvan MR Naxçıvan Qızlar Liseyi
1.4. Abdullayev Ümüd Fuad oğlu - Naxçıvan MR Culfa rayonu Kırna kənd tam orta məktəb
1.5. Rzayev Yaqub Aqil oğlu - Naxçıvan MR Ordubad rayonu Gənzə kənd tam orta məktəb
1.6. Paşayev İsmayıl Hilal oğlu - Naxçıvan MR Şahbuz rayonu Badamlı qəsəbə tam orta məktəb
1.7. Rzazadə Murad Mübariz oğlu - Naxçıvan MR Sədərək rayonu Sədərək kənd 1 nömrəli tam orta məktəb
1.8. Rəhimli Polad Fuad oğlu - Naxçıvan MR Şərur şəhər Fizika-riyaziyyat təmayüllü lisey
1.9. Səttarov Adil Fikrət oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey
1.10. Hüseynli Nihad Arif oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey
1.11. Ağayev Hüseyn Bəxtiyar oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey
1.12. Hacı-Sultanov Müslüm Əli oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey
1.13. Umudova Xədicə Babək qızı - MÜTDA-nın birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey
1.14. Məmmədli Aydan Nizami qızı - MÜTDA-nın birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey
1.15. Xəlifəquliyev Zabit Rəşad oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey
1.16. Hüseynova Nəzrin Emin qızı - MÜTDA-nın birbaşa tabeliyindəki Bakı Avropa liseyi
1.17. Şirəliyeva Ayan Bəhruz qızı - MÜTDA-nın birbaşa tabeliyindəki Bakı Avropa liseyi
1.18. Şirinova Tahirə Babək qızı - MÜTDA-nın birbaşa tabeliyindəki Bakı Avropa liseyi
1.19. Əlizadə Səməd Aynur oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Bakı Avropa liseyi
1.20. Bayramlı Nazlı Fariz qızı - MÜTDA-nın birbaşa tabeliyindəki Bakı Avropa liseyi
1.21. Rəhmətova Fatimə Məmmədəli qızı - MÜTDA-nın birbaşa tabeliyindəki Bakı Avropa liseyi
1.22. İsayev Oğuz Rəşad oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Bakı Avropa liseyi
1.23. Süleymanov Nihad Elçin oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Bakı Avropa liseyi
1.24. Əhmədi Cahandar Cahangir oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Bakı Avropa liseyi
1.25. Cəlilova Asiman Coşqun qızı - MÜTDA-nın birbaşa tabeliyindəki Bakı Avropa liseyi
1.26. Bayramov Ülvi Elxan oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Bakı Avropa liseyi
1.27. Bəkirov Səid Pərviz oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.28. Əmrahzadə İsmayıl Anar oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.29. Xəlilzadə Amin Yavər oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.30. Kərimli İbrahim Elnur oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.31. İsmayılzadə Amil Vidadi oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.32. Qarayev Fuad Mübariz oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.33. Mahmudzadə Əkbər Pərviz oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.34. Məmmədli Hüseyn Müşfiq oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.35. Muradlı Məsud Təyyub oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.36. Mustafayev Elcan Söhrab oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.37. Tərişli Nihat Əfqan oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.38. Əliyeva Tükəzban Nəsimi qızı - MÜTDA-nın birbaşa tabeliyindəki Kimya-biologiya təmayüllü Respublika liseyi
1.39. Qəmbərova Aydan Ceyhun qızı - MÜTDA-nın birbaşa tabeliyindəki Kimya-biologiya təmayüllü Respublika liseyi
1.40. Məmmədli Murad Gəray oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Kimya-biologiya təmayüllü Respublika liseyi
1.41. Alıyeva Nuray Nazir qızı - MÜTDA-nın birbaşa tabeliyindəki Gəncə şəhər Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.42. İmaməliyeva Fidan Ənvər qızı - MÜTDA-nın birbaşa tabeliyindəki Gəncə şəhər Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.43. Qurbanov Məhəmməd Habil oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Gəncə şəhər Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.44. Nəbiyeva Jalə Etibar qızı - MÜTDA-nın birbaşa tabeliyindəki Gəncə şəhər Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.45. İsmayılov Murad Rəşad oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Quba rayon Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.46. Muradov Cəlal Murad oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Quba rayon Fizika, riyaziyyat və informatika təmayüllü lisey
1.47. Əhmədov Rəhman Roman oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Şəki şəhəri Kimya-biologiya təmayüllü lisey
1.48. Hacıyeva Məhbubə Vüqar qızı - MÜTDA-nın birbaşa tabeliyindəki Şəki şəhəri Kimya-biologiya təmayüllü lisey
1.49. Məmmədli Nurlan Nizaməddin oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Şəki şəhəri Kimya-biologiya təmayüllü lisey
1.50. Süleymanov Babək Mürşüd oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Şəki şəhər Kimya-biologiya təmayüllü lisey
1.51. İsmayılov Ayxan Akif oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Şirvan şəhər Kimya-biologiya təmayüllü lisey
1.52. Həsənzadə Rza Ruslan oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki S.Rüstəm adına xarici dillər təmayüllü gimnaziya
1.53. Məmmədova Aysel Kamal qızı - MÜTDA-nın birbaşa tabeliyindəki T.Həsənov adına 23 nömrəli tam orta məktəb
1.54. Kazımova Nüşabə Elşən qızı - MÜTDA-nın birbaşa tabeliyindəki T.İsmayılov adına 6 nömrəli məktəb-lisey
1.55. Mustafazadə Aysu Cabar qızı - MÜTDA-nın birbaşa tabeliyindəki T.İsmayılov adına 6 nömrəli məktəb-lisey
1.56. Təhməzli Mətin Şahbaz oğlu - Bakı şəhəri 5 nömrəli tam orta məktəb
1.57. Əliyeva Aytac İsa qızı - Bakı şəhəri 31 nömrəli tam orta məktəb
1.58. Əzimzadə Elvin Elyar oğlu - Bakı şəhəri 42 nömrəli tam orta məktəb
1.59. Tağızadə Nəsimi İsmayıl oğlu - Bakı şəhəri 44 nömrəli tam orta məktəb
1.60. Xələfi Nəsrin Fariz qızı - Bakı şəhəri 60 nömrəli tam orta məktəb
1.61. Məmmədov Rasul Arif oğlu - Bakı şəhəri 72 nömrəli məktəb-lisey
1.62. Əliyeva Zeynəb Mübariz qızı - Bakı şəhəri 93 nömrəli tam orta məktəb
1.63. Dadaşova Səbinə Mənsur qızı - Bakı şəhəri 104 nömrəli tam orta məktəb
1.64. Hüseynov Elman Valeh oğlu - Bakı şəhəri 117 nömrəli tam orta məktəb
1.65. Xanəhmədli Aydan Aydın qızı - Bakı şəhəri 117 nömrəli tam orta məktəb
1.66. Oruc Mahmud Vüqar oğlu - Bakı şəhəri 182 nömrəli tam orta məktəb
1.67. Ramazanlı Cavid Müşfiq oğlu - Bakı şəhəri 212 nömrəli tam orta məktəb
1.68. Hüseynova Fatimə Nadir qızı - Bakı şəhəri 220 nömrəli məktəb-lisey
1.69. Hüseynzadə Vəfa Tofiq qızı - Bakı şəhəri 246 nömrəli tam orta məktəb
1.70. Hüseynli Xədicə Məzahir qızı - Bakı şəhəri 247 nömrəli tam orta məktəb
1.71. Qəmbərova Həvva Azər qızı - Bakı şəhəri 247 nömrəli tam orta məktəb
1.72. Abbaszadə Kənan Bəhruz oğlu - Bakı şəhəri 252 nömrəli məktəb-lisey
1.73. Quliyev Davud Nizami oğlu - Bakı şəhəri 252 nömrəli məktəb-lisey
1.74. Babazadə Jalə Turan qızı - Bakı şəhəri 269 nömrəli tam orta məktəb
1.75. Əliyeva Zəhra İlqar qızı - Bakı şəhəri 276 nömrəli tam orta məktəb
1.76. Qurbanlı Murad Rəşad oğlu - Bakı şəhəri 281 nömrəli tam orta məktəb
1.77. İsmayılov Polad Baxış oğlu - Bakı şəhəri 281 nömrəli tam orta məktəb
1.78. Mayılov Kənan Samir oğlu - Bakı şəhəri 287 nömrəli Zəkalar liseyi
1.79. Quliyev Rəhman Azad oğlu - Bakı şəhəri 287 nömrəli Zəkalar liseyi
1.80. Bəxtiyarova Nazlı İlham qızı - Bakı şəhəri 287 nömrəli Zəkalar liseyi
1.81. Xudaverdiyev Turan Kənan oğlu - Bakı şəhəri 313 nömrəli tam orta məktəb
1.82. Güvəndikli Müjgan Əli qızı - Bakı şəhəri 189-190 nömrəli tam orta məktəb
1.83. Əlizadə Əziz Xanəli oğlu - Bakı şəhəri 189-190 nömrəli tam orta məktəb
1.84. Tağızadə Zeynəb Anar qızı - Bakı şəhəri “Ankara məktəbi” məktəb-lisey
1.85. Nəsirova Zəhra Ruslan qızı - Bakı şəhəri “Tərəqqi” texniki-humanitar lisey
1.86. Zahirli Səbuhi Rövşən oğlu - Bakı şəhəri “Tərəqqi” texniki-humanitar lisey
1.87. Musalı Səlçuq Azər oğlu - Bakı şəhəri Humanitar fənlər təmayüllü məktəb-lisey
1.88. Karibov Nurlan İlqar oğlu - Bakı şəhəri Humanitar fənlər təmayüllü məktəb-lisey
1.89. Əliyeva Aytac Xəqani qızı - Bakı şəhəri Humanitar fənlər təmayüllü məktəb-lisey
1.90. Məmmədov Bəhram Zahid oğlu - Bakı şəhəri Humanitar fənlər təmayüllü məktəb-lisey
1.91. Quliyev Kənan Elçin oğlu - Bakı şəhəri Məktəb, Lisey Kompleksi
1.92. Hüseynova Nuray Emin qızı - Gəncə şəhər M.C.Paşayev adına 39 nömrəli tam orta məktəb
1.93. Məmməd Rəşid Rövşən oğlu - Sumqayıt şəhəri İ.Qayıbov adına 1 nömrəli tam orta məktəb
1.94. Əşrəfov Ramal Rüfət oğlu - Sumqayıt şəhəri İ.Qayıbov adına 1 nömrəli tam orta məktəb
1.95. Nəbiyev Əli Samir oğlu - Sumqayıt şəhəri İ.Qayıbov adına 1 nömrəli tam orta məktəb
1.96. Quliyev Ümid Asim oğlu - Sumqayıt şəhəri A.İbrahimli adına 14 nömrəli tam orta məktəb
1.97. Həsənov Ziya İlqar oğlu - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya
1.98. Qurbanova Zəhra Anar qızı - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya
1.99. Mədətov İsa İlqar oğlu - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya
1.100. Məhərrəmov İsa İsmayıl oğlu - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya
1.101. Məmmədzadə Coşqun Ceyhun oğlu - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya
1.102. Rəcəbov Murad Anar oğlu - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya
1.103. Rüstəmova Validə Elçin qızı - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya
1.104. Yusifzadə Ayan Vüqar qızı - Sumqayıt şəhəri Nizami Gəncəvi adına Texniki və təbiət elmləri liseyi
1.105. Həbibov Mətin Həbib oğlu - Sumqayıt şəhəri Nizami Gəncəvi adına Texniki və təbiət elmləri liseyi
1.106. Muradlı Atilla Ehtiram oğlu - Mingəçevir şəhəri 20 nömrəli tam orta məktəb
1.107. Musayev Taleh Valeh oğlu - Mingəçevir şəhəri S.Vurğun adına 16 nömrəli tam orta məktəb
1.108. Həbibli Ülvi Vahab oğlu - Lənkəran şəhəri H.Aslanov adına 3 nömrəli tam orta məktəb
1.109. Rüstəmli Rəşid Heydər oğlu - Lənkəran şəhəri S.Kazımbəyov adına 6 nömrəli tam orta məktəb-lisey
1.110. Şükürlü Rita Elpay qızı - Lənkəran şəhəri S.Kazımbəyov adına 6 nömrəli tam orta məktəb-lisey
1.111. Şükürova Gülər Ramid qızı - Lənkəran rayonu Gərmətük qəsəbə tam orta məktəb
1.112. Şirinli Məlahət Rafiq qızı - Lənkəran rayonu Şürük kənd tam orta məktəb
1.113. Seyfullalı Xasay Asif oğlu - Abşeron rayonu Ceyranbatan qəsəbə 2 nömrəli tam orta məktəb
1.114. Abdullayev Aqil Əşrəf oğlu - Abşeron rayonu H.Axundov adına Saray qəsəbə 3 nömrəli tam orta məktəb
1.115. Haqverdiyeva Nəzrin Seyun qızı - Abşeron rayonu Mehdiabad qəsəbə 1 nömrəli tam orta məktəb
1.116. Zülfüqarova Əsmər Yaşar qızı - Abşeron rayonu S.Əzizov adına Aşağı Güzdək qəsəbə tam orta məktəb
1.117. Vəliyeva Şəms Azər qızı - Ağdam rayonu 122 nömrəli tam orta məktəb
1.118. Məhərrəmli Turqay İlqar oğlu - Ağstafa şəhər Ə.Hüseynov adına 1 nömrəli tam orta məktəb
1.119. İbadov Ülvi Elman oğlu - Balakən şəhər Nizami adına 1 nömrəli tam orta məktəb
1.120. Səfərov Emil Surxay oğlu - Bərdə rayonu Muğanlı kənd E.Mirzəyev adına tam orta məktəb
1.121. Məmmədov Nihad Zaur oğlu - Bərdə şəhər Akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-lisey
1.122. Mustafayev Tağı Tofiq oğlu - Bərdə şəhər N.Nərimanov adına 3 nömrəli tam orta məktəb
1.123. Qasımova Fidan İsa qızı - Beyləqan rayonu Yuxarı Kəbirli kənd Ə.Əsgərov adına tam orta məktəb
1.124. Atayev Fuad Ramil oğlu - Cəbrayıl rayonu Əmirvarlı kənd Əşrəf Hüseynov adına tam orta məktəb
1.125. Əliyeva Alimə Bayram qızı - Cəbrayıl rayonu Tatar kənd tam orta məktəbi
1.126. Allahverdiyeva Fatimə Habil qızı - Gədəbəy şəhər İ.Əliyev adına 1 nömrəli tam orta məktəb
1.127. Şirinova Aysel Rasim qızı - Hacıqabul rayonu Muğan qəsəbə V.Məmmədov adına tam orta məktəb
1.128. Abbasova Zeynəb Faiq qızı - İsmayıllı rayonu Lahıc qəsəbə tam orta məktəbi
1.129. Göyüşov Namaz Veyis oğlu - İsmayıllı rayonu A.Məmmədov adına Diyallı kənd tam orta məktəbi
1.130. Həsənov Amil Aydın oğlu - İsmayıllı rayonu A.Məmmədov adına Diyallı kənd tam orta məktəbi
1.131. Məmmədova İlahə Elşən qızı - İsmayıllı rayonu Topçu kənd tam orta məktəbi
1.132. Abbasova Şəlalə Mübariz qızı - İsmayıllı şəhər E.Məmmədov adına 3 nömrəli məktəb-lisey
1.133. Əliyeva Fatimə Dəyanət qızı - Laçın rayonu Çıraqlı kənd tam orta məktəbi
1.134. Baxşalıyev Azər Natiq oğlu - Laçın rayonu Taxtakörpü qəsəbə tam orta məktəb
1.135. Fərəczadə Nübar Mübariz qızı - Lerik şəhəri A.Nuriyev adına 1 nömrəli texniki fənlər təmayüllü məktəb-lisey
1.136. Məmmədov Rəsul Mahmud oğlu - Qazax rayonu Daş Salahlı kənd A.Əmilov adına 1 nömrəli tam orta məktəb
1.137. Abdurahmanlı Bənövşə Ramil qızı - Qazax rayonu Daş Salahlı kənd A.Əmilov adına 1 nömrəli tam orta məktəb
1.138. Musayev Pərvin Azər oğlu - Qazax rayonu Hüseynbəyli kənd A.Əliyev adına tam orta məktəb
1.139. Mustafazadə Afiq Arzu oğlu - Qazax şəhər N.Vəliyev adına 5 nömrəli tam orta məktəb
1.140. Yusibov Elşən Səfa oğlu - Qəbələ rayonu Həmzəli kənd tam orta məktəb
1.141. Allahverdiyev İlyaz Çərkəz oğlu - Qəbələ rayonu Nohurqışlaq kənd İ.Abdulkərimov adına tam orta məktəb
1.142. Gülməliyeva Sevil Rövşən qızı - Quba rayonu Aşağı Atuc kənd tam orta məktəb
1.143. Qasımzadə Mahir Əvəz oğlu - Qubadlı şəhər 3 nömrəli tam orta məktəb
1.144. Səfərova Leyla Abuzər qızı - Saatlı rayonu Varxankənd kənd Ə.Şüküroğlu adına tam orta məktəb
1.145. Hüseynov Nurlan Füzuli oğlu - Saatlı şəhər 2 nömrəli tam orta məktəb
1.146. Nəsirova Zenfira Rəşadət qızı - Salyan şəhər Aşıq Pənah adına 1 nömrəli humanitar fənlər təmayüllü məktəb-lisey
1.147. Güliyeva Billur Mürsəl qızı - Şəki rayonu Kiş kənd A.Məmmədov adına 2 nömrəli tam orta məktəb
1.148. Əliyev Nihad Fuad oğlu - Şəki şəhər B.Vahabzadə adına 1 nömrəli tam orta məktəb
1.149. Qəmbərova Şəbnəm Ramil qızı - Şirvan şəhər S.Hüseynov adına 1 nömrəli tam orta məktəb
1.150. Qasımova Mədinə Müşviq qızı - Tovuz rayonu Əlimərdanlı kənd M.Musayev adına tam orta məktəb
1.151. Səlimov Nicat Asif oğlu - Tovuz şəhər M.Ələkbərov adına tam orta məktəb
1.152. Məhərrəmzadə İlahə Rəşad qızı - Tovuz şəhər M.Ələkbərov adına tam orta məktəb
1.153. Poladov Murad Hikmət oğlu - Tovuz şəhər M.Ələkbərov adına tam orta məktəb
1.154. Əlili Fateh Kamran oğlu - Xaçmaz şəhər A.Səlimov adına 7 nömrəli tam orta məktəb
1.155. Abdullayeva Aytən Mahmud qızı - Zaqatala şəhər Aşağı Tala kənd V.Abdullayev adına 1 nömrəli tam orta məktəb
1.156. Əlizadə Heydər Ağa oğlu - Zəngilan rayon 3 nömrəli tam orta məktəb
1.157. Dəmirova Nizganə Səhrab qızı - Zərdab rayonu Şahhüseynli kənd Cabir Azayev adına tam orta məktəb
1.158. Axundov Camal Elnur oğlu - Bakı Dövlət Universiteti nəzdində Gənc istedadlar liseyi
1.159. Cəfərov Cəfər Teymur oğlu - Bakı Dövlət Universiteti nəzdində Gənc istedadlar liseyi
1.160. Əliyeva Aytac Aruzovna - Bakı Dövlət Universiteti nəzdində Gənc istedadlar liseyi
1.161. İbrahimov Ömər Anar oğlu - Bakı Dövlət Universiteti nəzdində Gənc istedadlar liseyi
1.162. Zamanlı Rüxsarə Xaqani qızı - Bakı Dövlət Universiteti nəzdində Gənc istedadlar liseyi
1.163. Əsgərov Mirhəbib Ziya oğlu - Heydər Əliyev adına Müasir Təhsil Kompleksi
1.164. Hüseynəliyeva Dilarə Ədalət qızı - Heydər Əliyev adına Müasir Təhsil Kompleksi
1.165. Nəcəf Mehdi İlham oğlu - Heydər Əliyev adına Müasir Təhsil Kompleksi
1.166. Salmanov Rəvan Natiq oğlu - Türk Dünyası Atatürk Liseyi
1.167. Ələsgərli Nicat Sərvər oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi
1.168. Şərifzadə Səttar Fidayət oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi
1.169. Məmmədli Saleh Babək oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi
1.170. Əliyev Xəyal Şəhriyar oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi
1.171. Əsgərova Nəzrin Famil qızı - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi
1.172. Göyüşova Amalya İsa qızı - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi
1.173. Hacızadə Nihad Samir oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi
1.174. İsmayıllı Raul Bəhrəm oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi
1.175. Quliyev Uğur İlham oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi
1.176. Mamhudova Sevinc Tərlan qızı - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi
1.177. Manafov Sadiq Səbuhi oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi
1.178. Məmmədov Telman Xəqani oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi
1.179. Salmanova Nuray Faiq qızı - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi
1.180. Rzayeva Aida Anar qızı - Bakı Modern Təhsil Kompleksi
1.181. Ələkbərov Şəmsi Şəmsəddin oğlu - Bakı Modern Təhsil Kompleksi
1.182. Miriyev Məhəmməd Səyavuş oğlu - Bakı Modern Təhsil Kompleksi
1.183. Hacıyeva Nigar Abbas qızı - Bakı Modern Təhsil Kompleksi

### 2. Aşağıda adları qeyd edilən XI sinif məzunları gümüş nişanla təltif olunsunlar:

2.1. Məmmədov Turqay Araz oğlu - Naxçıvan MR Şahbuz rayonu Kükü kənd tam orta məktəbi
2.2. Əzizli Nicat Elçin oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey
2.3. Abbaszadə Elmir Anar oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
2.4. Həsənzadə Aqil Sahil oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
2.5. Həşimov Davud Polad oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika,riyaziyyat və informatika təmayüllü lisey
2.6. Qaraşlı Qaraş Mirzə oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
2.7. Qədimli Ömər Hikmət oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
2.8. Sadıqzadə Rəvan Ramil oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
2.9. Seyfullayev Rəvan Kənan oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
2.10. Alpaşayev Ayxan Orxan oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü lisey
2.11. Sadıqlı Turan Elxan oğlu - MÜTDA-nın birbaşa tabeliyindəki Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü lisey
2.12. Məmmədzadə Dəniz İlqar qızı - MÜTDA-nın birbaşa tabeliyindəki Şəki şəhəri Kimya-biologiya təmayüllü lisey
2.13. Cəfərova Fidan Pərviz qızı - MÜTDA-nın birbaşa tabeliyindəki Şəmkir rayonu Kimya-biologiya təmayüllü lisey
2.14. Ağayeva Ayla İmran qızı - MÜTDA-nın birbaşa tabeliyindəki T.İsmayılov adına 6 nömrəli məktəb-lisey
2.15. Kazımova Elmira Mirəli qızı - MÜTDA-nın birbaşa tabeliyindəki T.İsmayılov adına 6 nömrəli məktəb-lisey
2.16. Ağakişiyeva Gülnur Əhməd qızı - Bakı şəhəri 1 nömrəli tam orta məktəb
2.17. Əsədova Əminə Eldar qızı - Bakı şəhəri 36 nömrəli tam orta məktəb
2.18. Qəhrəmanova Nərgiz Mərahim qızı - Bakı şəhəri 60 nömrəli tam orta məktəb
2.19. Məmmədov Əli Ramin oğlu - Bakı şəhəri 100 nömrəli tam orta məktəb
2.20. Daşdəmirova Fidan Füzuli qızı - Bakı şəhəri 114 nömrəli tam orta məktəb
2.21. Hüseynli İmaməli İsmayıl oğlu - Bakı şəhəri 220 nömrəli tam orta məktəb
2.22. Məmmədova Nərgiz Zaur qızı - Bakı şəhəri 244 nömrəli tam orta məktəb
2.23. Qasımova Aysu Vaqif qızı - Bakı şəhəri 295 nömrəli tam orta məktəb
2.24. Hacızadə Əsma Gündüz qızı - Bakı şəhəri 314 nömrəli tam orta məktəb
2.25. Nəcəfli Rəvan Rövşən oğlu - Bakı şəhəri “Ankara məktəbi” məktəb-lisey
2.26. Ağakişiyev Rüfət Ağaverdi oğlu - Bakı şəhəri Məktəb, Lisey Kompleksi
2.27. Abbaslı Sübhan Süleyman oğlu - Bakı şəhəri Humanitar fənlər təmayüllü məktəb-lisey
2.28. Əliyev Turan Anar oğlu - Bakı şəhəri Humanitar fənlər təmayüllü məktəb-lisey
2.29. Nuri Asim Ramin oğlu - Bakı şəhəri Texniki-humanitar lisey
2.30. Yunisov Həsən Vüqar oğlu - Sumqayıt şəhəri 23 nömrəli tam orta məktəb
2.31. Həsənli Rəsul Zaur oğlu - Mingəçevir şəhəri Təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü lisey
2.32. Şirinova Nərgiz Mehdi qızı - Mingəçevir şəhər Texniki humanitar lisey
2.33. Sadıqova Aytac Elnur qızı - Abşeron rayonu Masazır kənd 3 nömrəli tam orta məktəb
2.34. Əlişanov Vaqif Qasım oğlu - Abşeron rayonu Qobu qəsəbə Q.Xalıqov adına 1 nömrəli tam orta məktəb
2.35. Fətəliyeva Səhər Emin qızı - Astara rayonu Şağlazüzə kənd tam orta məktəb
2.36. Həşimov Əli Azər oğlu - Masallı rayonu Mahmudavar kənd tam orta məktəbi
2.37. Məmmədova Zeynəb Habil qızı - Şəmkir rayonu Mahmudlu (Koltəhnəli) kənd Y.Əsgərov adına tam orta məktəb
2.38. Əzizi-Meşkin Fərəh Axqar qızı - Bakı Dövlət Universiteti nəzdində Gənc istedadlar liseyi
2.39. Musayeva Sabrina Zeynalovna - Bakı Modern Təhsil Kompleksi

3. Qızıl və gümüş nişanla təltif olunmuş təhsilalanların adları oxuduqları məktəbin “Şərəf kitabı”na yazılsın.
4. Elm və Təhsil Nazirliyinin Vətəndaşlara xidmət və sənədlərlə iş şöbəsi (Rəşad Xanlarov) bu əmrin surətinin Nazirliyin aidiyyəti struktur bölmə və qurumlarına çatdırılmasını təmin etsin.
5. Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsi (Səbuhi Rzayev) bu əmrin “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.
6. Əmrin icrasına nəzarət nazir müavini Həsən Həsənliyə həvalə olunsun.

**Əsas:** Naxçıvan MR Təhsil Nazirliyinin, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin, regional təhsil idarələrinin, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin birbaşa tabeliyindəki və özəl, digər qurumlara tabe ümumi təhsil müəssisələrinin məktubları.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının elm və təhsil naziri**
*18 iyul 2024-cü il*

# BİZ QƏRBİ AZƏRBAYCAN QAYIDACAĞIQ

**21 iyun 2024-cü il Azərbaycan Respublikasının ictimai-siyasi və kulturoloji həyatında mühüm bir faktı xatırladacaq amil kimi həmişəlik qalacaqdır. Bu, həmin tarixdir ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin birbaşa himayəsi və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə “Qərbi Azərbaycana qayıdış” festival-konqresi baş tutdu. Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarətlə başlayan festival-konqresin rəsmi açılış mərasimi Zəngəzur Milli Parkının ərazisindəki Batabat yaylağında keçirildi. Batabat yaylağının əhatəsində bayram rəmzi olan üç tonqalın alovlarının rəmzi mənası ancaq igidlərimizin sərvaxt olmasının deyil, alovun işığında əsrlərlə gizlin qalan həqiqətlərin açılması idi.**

## YURD sevgisi, QAYIDIŞ amalı



**Mahirə Hüseynova,**
**ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor,**
**Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü**

### Vətənpərvər gənc nəsil biliyi, zəkası ilə silahlanıb dünyaya Qərbi Azərbaycan mesajını verir

NDU Tələbə Teatr Studiyasının təqdim etdiyi “Dərələyəz” kompozisiyasının ardından 2023-cü ildə keçirilən “Qərbi Azərbaycana qayıdış” festival-konqresindən məzmunlu videoçarxın nümayişindən sonra festival-konqres iştirakçılarını salamlayan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirin fəlsəfəsi barədə danışdı. Ümumiyyətlə, festival-konqresin hər bir iştirakçısı və çıxışçısının baxışlarından iki əsrə yaxındır Qərbi Azərbaycanın taleyi, orada əsrlərlə yaşamış soydaşlarımızın keçdiyi yolları xatırlayıram.

Qərbi Azərbaycan bu gün də varisi olduğu İrəvan xanlığının maddi və mənəvi həyatının canlı daşıyıcısı olaraq ümumazərbaycan mədəniyyətinə töhfələr verməkdə davam edir. Şərti olaraq həmin ərazilər quruluşuna görə bir-birindən təbii sərhədlər olan çaylar və arxlarla ayrılan mahallara, mahallar isə kəndlərə bölünmüşdü. Səfəvilərdən miras olaraq qalan, Rusiya imperiyasının işğalına qədər və ondan sonra da siyasi şəraitin diqtəsindən asılı olaraq ərazi dəyişikliyinə uğrasa da, kiçik istisnalar olmaqla mahalların, həmçinin o mahalların ərazilərini şərtləndirən kəndlərin adları dəyişilməz qalırdı. XX əsrin ikinci onilliyinin sonlarında tarixi ərazilərimizdə zamanın imperialist təfəkkürü ilə silahlanan güclü dövlətlərin uzağa gedən siyasətinin nəticəsi olaraq regionda ilk erməni dövlətinin yaradılması fakta çevrilənə qədər belə də qaldı. Tarixi ərazilərimizdə yaradılan daşnak Ermənistanı özünü elan edəndən dərhal sonra aborigen əhaliyə qarşı amansız tədbirlərə start verdi. Daşnak Ermənistan hökumətinin ilk başçısı Hovhanes Kaçaznuni həyata keçirilən həmin qanlı tədbirlərdən sonra - 1923-cü ilin payızında Rumıniyanın Konstantsa şəhərində “Daşnaksutyun” partiyasının məşhur konfransına təqdim etdiyi “Daşnaksutyunun edəcəyi nəsə qalmadı” adlı məruzəsində partiyadaşları qarşısında etiraf edirdi: “Bizim gələcək Ermənistan qarşısında edəcəyimiz ancaq xaraba bazara çevrilmiş müsəlman kəndləri oldu”. Bu, Zəngəzur və Göyçədə, Dərələyəz mahalında və Lori dərələrində yüzlərlə kəndlərin sakinlərinə tutulan qanlı divandan, minlərlə dinc, silahsız insanların, o cümlədən qadın və körpələrin, qoca və xəstələrin, köməksiz camaatın ölümü ilə xarakterizə olunan cinayətlərin dilə gətirilməsi idi.

XX əsrin 20-ci illərində regionun sovetləşməsi, Rusiyadan ixrac olunan “bolşevik inqilablarının” nəticəsi olaraq daşnak Ermənistanının yerində qurulan Sovet Ermənistanında sələflərindən fərqli olaraq azərbaycanlılara qarşı səssiz mübarizə metodu seçildi. Bu mübarizə metodunun sayəsində 1988-ci ilə qədər olan müddətdə azərbaycanlılara qarşı total etnosid siyasəti həyata keçirildi və nəticədə Sovet Ermənistanında, demək olar ki, Azərbaycanmənşəli toponimlərin total şəkildə erməniləşdirilməsi prosesi davam etdirildi. 1988-1990-cı illərdə oradakı azərbaycanlıların silah gücünə, ölüm qorxusu altında çıxarılması ilə onlar 70 illik prosesi başa çatdırdılar. Bundan sonra Azərbaycan Respublikasının ərazisində, ilkin olaraq Qarabağın dağlıq hissəsində, daha sonra Gəncəətrafı rayonlarda erməni separatizmi eyni ardıcıllıqla fəaliyyətini davam etdirir, o vaxtacan müxtəlif platformalardan Naxçıvan Muxtar Respublikasının bütün ərazilərinə iddialarını rəsmi İrəvan səviyyəsində səsləndirirdi. Hadisələr elə ardıcıllıq və bu ardıcıllıqla ayaqlaşan sürətlə baş verirdi ki, sinxronlaşma Azərbaycan xalqına nikbin nəsə fikirləşməyə əsas vermirdi. Nəticədə isə Qərbi Azərbaycandan tarixi vətənlərindən çıxmaq məcburiyyətində qalan soydaşlarımızın taleyini yenicə dövlət müstəqilliyini elan etdikdən 2 il sonra ərazisinin 20 faizindən çoxu himayədar dövlətlərin dəstəyi ilə Ermənistan silahlı qüvvələri tərəfindən işğal zonasına çevrilən Azərbaycan Respublikasında 1 milyona yaxın azərbaycanlı yaşadı.

1993-cü il, ölkəmizin təqviminə Qurtuluş Günü kimi düşən, ümumilikdə isə dünya azərbaycanlılarının harada yaşamalarından asılı olmayaraq, onların hər biri üçün qürur mənbəyinə çevrilən müasir, qüdrətli, QALİB Azərbaycan Respublikasının memarı Heydər Əlirza oğlu Əliyevin iyunun 15-də siyasi hakimiyyətə qayıdışına qədər ümidsizlik girdabında qalmağın nə demək olduğunu xalqımız şəxsi taleyində yaşadı.

Belədir və sübuta gərək olmayan həqiqət ondan ibarətdir ki, dünyada hər bir xalq öz tarixinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edir, qalır həmin imkandan nə dərəcədə bəhrələnmək məsələsi. Xalqımız üçün o faktor da sirr deyil ki, yaradılan hər oxşar məqamdan bəhrələnməksə qətiyyən birmənalı mümkün olmur. Uzun əsrlər boyu xalqımızın tarixin müəyyən məqamlarında itirdiyi dövlətçilik amili belə, onun şüurunda dövlət və dövlətçilik şüurunu qoruyub saxlamağa imkan verdi. Ümummilli Lider Heydər Əliyevin ətrafında monolit birləşməni bir tərəfdən şərtləndirən faktor böyük dövlət adamının illərin sınağından çıxan şəxsi keyfiyyətləri idisə, digər tərfədən xalqımızın təhtəlşüurunda özünə yuva qurmuş dövlətçilik, dövlətçilik ənənələri oldu - desək, inanmırıq ki, bu, hansısa polemika mövzusuna çevrilsin. Məhz Azərbaycan seçicisinin şüurunda qərarlaşmış bu düşüncənin nəticəsi idi ki, 2003-cü ilin payızında keçirilən növbəti Azərbaycan Respublikasının Prezidenti seçkilərində prezidentliyə namizəd Heydər Əliyev səhhəti ilə əlaqədar ölkə seçicilərinə müraciəti zamanı namizədliyini İlham Əliyevin xeyrinə geri götürdüyünü bəyan edərkən xalq Ümummilli Liderin seçiminə hörmət və inamını ifadə etdi.

Bu anın özü geniş mənada növbəti zaman imtahanından çıxmaq üçün Azərbaycan xalqına verilmiş şans idi və onun qiymətləndirilməsinin köklərini millətin yaratdığı kulturoloji qatlarda axtarmaq lazımdır. 2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçkilərində iştirak edən birmənalı böyük əksəriyyət İlham Əliyevin şəxsində, ümumilikdə Heydər Əliyev siyasi kursuna səs verdi. Ümummilli Liderin bioloji olmaqla, həm də siyasi varisi Prezident İlham Əliyev fəaliyyətinin ilk illərində bütün fərqlənən dövlət adamları kimi, seçicisinə, vətəndaşına verdiyi hər bir vədin əmələ çevrildiyini praktik fəaliyyəti ilə ortaya qoydu. Prezident deyirdi ki, birinci mərhələdə Azərbaycanı iqtisadi cəhətdən regionun lider ölkəsinə çevirəcəyik və bu, elə də oldu. İlham Əliyev təkcə yerli kütləvi informasiya vasitələrinə yox, dünyanın ən nüfuzlu media nümunələrində, söz demək imkanı olan hər bir platformada bəyan etdi ki, Azərbaycan Respublikasının ərazilərini işğalda saxladığı müddətdə Ermənistanın heç bir regional layihədə iştirakı mümkün deyil, müşahidəçilər bunun da söz yox, əməl olduğunu, illər boyunca reallıq olduğunu gördülər.

2018-ci il dekabrın 24-də Abşeron rayonunda məcburi köçkün ailələri üçün salınan yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində iştirak edənlər və o insanların şəxsində həmin mərasimdə Prezident İlham Əliyevin çıxışını izləyən hər kəs, fərqi yoxdur, həmin şəxs Azərbaycanda, yoxsa onun sərhədlərindən kənarda yaşayır, onlar dövlət başçımızın növbəti bəyanatını bir daha eşitdilər. Prezident məcburi köçkünlərə üz tutaraq xatırladırdı: “Sizin üçün bu, müvəqqəti yaşayış yeridir. Əlbəttə ki, burada gözəl şəraitin yaradılması bizim borcumuzdur. Mən bilirəm ki, burada yaşayacaq vətəndaşlar çox ağır şəraitdə yaşamışlar. İndi burada gözəl şərait yaradılır. Ancaq yenə də bu, müvəqqəti yaşayış yeridir, gün gələcək belə gözəl şəhərciklər bu gün işğal altında olan torpaqlarda açılacaqdır”.

2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanla başlanan 44 günlük Vətən müharibəsinin nəticəsi olaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin xalqımıza qazandırdığı tarixi Zəfər həmçinin regionda yeni bir reallıq yaratdı, 2023-cü ilin sentyabrında Qarabağda baş tutan iki günlük antiterror əməliyyatı isə Azərbaycan Respublikasının bütün ərazisində onun suverenliyini təmin etdi. Yaranan yeni reallıq daha bir tarixi ədaləti bərpa etməyə şərait yaratdı: bu, Zəngəzur dəhlizinin açılması ilə bərabər Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın hüquqlarının bərpasını, onların tarixi vətənlərinə qayıtmasını gündəmə gətirdi.

2022-ci il dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə Azərbaycan dövlətinin öz soydaşlarının hüquqlarının bərpası işində onların yanında olduğunu bəyan etməsi soydaşlarımızın 34 illik ayrılıqdan sonra vətənlərinə qayıtmaq ümidi yaratdı. Bu ümid isə həmin insanlarda üzvi bağlantıları olan o torpaqlara - Qırxbulaq, Şərur, Zəngibasar, Sürməl, Gərnibasar, Dərəkənd-Parçenis, Vedibasar, Göyçə, Səədli, Talın, Seyidli-Ağsaqqallı, Sərdarabad, Abaran, Dərəçiçək, Talın, Loru-Pəmbək, Ağbaba və digər mahallara qayıtmağın zaman məsələsi olduğu anlamını verir. Həmin mahallarda o insanların yolunu gözləyən ancaq 831 kənd var.

Bu, inkarolunmaz həqiqətlərdən biridir və minnətdarlıq hissi ilə xatırlayırıq ki, 1997-ci il dekabrın 18-də “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” Fərmanı imzalamaqla o yerlərə qayıtmağın hüquqi olmaqla bərabər, siyasi əsaslarını da Ümummilli Liderimiz yaratdı.

Bunun üçün, ilk növbədə, mənəvi hüquq var və o hüququ təsbit edən faktları xatırlayıram.

İrəvan bölgəsi və ümumilikdə Qərbi Azərbaycan bu günün özündə də əsrlərin təcrübəsi ilə yanaşı, hər bir çalarında milli kimliyin diqqət çəkdiyi zəngin memarlıq ənənələrini saxlayır. Bu nümunələr arasında məscidlərin öz xüsusi çəkisi fərqlənir. Həm də mənəvi-dini duyğuların ifadəsi olan abidələr, müqəddəs yerlər ilk dəfə təcavüzə uğradığı XIX əsrin 30-cu illərində Rusiya imperatorluğunun İrəvan xanlığını işğalından sonra ilk zərbələri hiss ediblər. Onlardan bəziləri rus pravoslav kilsəsinə, bəziləri isə silah anbarına çevrilmişdi. Hər bir xalqın həyata baxışının unikal inikası olan digər tarixi-memarlıq abidələri, məsələn, Çuxur-Səəd vilayətinin mərkəzi olan İrəvanda Fərhad Paşa tərəfindən Zəngiçayın sahilində inşa etdirilən İrəvan qalası qismən Rusiyanın işğalı zamanı, sonradan isə daşnak Ermənistanı və Sovet Ermənistanındakı hakimiyyət zamanı tamamilə məhv edilib. Daş və çiy kərpicdən ikiqat, yaxud üççat divara malik, eni 790 m, uzunluğu 850 m olan İrəvan qalasının 50-dən çox bürcü, 3 möhkəm dəmir darvazası barədə iki əsrdən artıq müddətdə avropalı səyyahların və yaxud Rusiya İmperatorluğunun ilhaqdan sonra təşkil etdiyi elmi ekspedisiya üzvlərinin qeydlərindən oxumaq mümkündür. Tarixi-memarlıq xüsusiyyətlərinə görə seçilən digər abidələrdən Hüseynqulu xanın əmri ilə əsası 1810-cu ildə qoyulan, Arazın sol sahilində, dördbucaqlı formada düzən yerdə salınan, 1815-ci ildə isə tikintisi başa çatdırılan məşhur Sərdərabad qalası dabu taleyi yaşadı.

Bunlardan əlavə, XIX yüzilliyin 50-ci illərində Sərdar sarayındakı süjetli kompozisiyaları bərpa edən, “Fətəli şah”, “Abbas Mirzə”, “Hüseynqulu xan”, “Sərkərdə” və digər portret janrında olmaqla 100-dən çox rəsm əsərinin yaradıcısı, İrəvan rəssamlıq sənətinin ən görkəmli nümayəndəsi Mirzə Qədim İrəvaninin əsərlərinin böyük əksəriyyəti də məhv edilib. Söhbət Mirzə Qədim İrəvanidən gedir ki, möcüzə nəticəsində xilas edilən rəsmlərinin 25-i Bakı İncəsənət Muzeyində, digərləri (böyük ehtimalla, qənimət kimi götürülənləri) isə Tbilisi və Sankt-Peterburqdakı muzey və qalareyalarda saxlanılır.

Ağqoyunlular, daha sonra Səfəvilər dönəmində Çuxur-Səəd vilayətinin, sonralardan İrəvan xanlığının inzibati mərkəzi olan İrəvan şəhərində bunlarla paralel olaraq Qərbi Azərbaycan ərazisində elm və təhsilin sabit, artan xətt üzrə dimanik inkişafının mənzərəsini salnamələrdən və bu ərazilərdən keçmiş məşhurların xatirələrində təsəvvür etmək mümkündür. Əsasən din xadimlərinin iştirakı ilə təşkil edilən təhsil özündə bir sıra elementləri ehtiva edirdi. Bu, ilk olaraq onunla xarakterizə olunurdu ki, məscidlərin nəzdində fəaliyyət göstərən böyük və yaxud kiçik mədrəsələrdə “müdərris” adlanan aşağı sinif müəllimləri və “vaiz”- deyə çağrılan yuxarı sinif müəllimləri uşaqların təhsilində əsas fiqurlardan idilər. Rusiya İmperiyasının İrəvan xanlığını istila etdiyi zaman, ancaq xanlığın mərkəzi olan şəhərdə 200 şagirdin təhsil aldığını xatırlasaq, bu, stabil və sistemli təhsil ilə bağlı aydın mənzərə yarada bilər. İstiladan əvvəl və sonralar təhsilin himayədarları İrəvan, ümumilikdə Qərbi Azərbaycanda ayrı-ayrı imkanlı şəxslər olsa da, bu tendensiyanın Güney Qafqaz üzrə siyasətə çevrilməsi birbaşa Qafqaz müsəlmanlarının II Şeyxülislamı Fazil İrəvaninin xidmətlərindən sayıla bilər. İrəvan şəhərində anadan olan, ilk təhsilini oradakı mədrəsədə aldıqdan sonra ali dini təhsilə yiyələnmək üçün 20 yaşında Qahirənin Əl-Əzhər Unversitetinə göndərilən Şeyxülislam təkcə Qərbi Azərbaycanda deyil, regiondakı müsəlman əhali üçün dini məktəblərin açılması və idarə olunmasının nəinki ideoloqu, həmçinin təşkilatçısı kimi də canlı nümunə idi.

**Ermənistanda bərqərar olan sovet hakimiyyətinin ilk illərində Qərbi Azərbaycan üzrə 1922-1923-cü illərdə 36, 1924-cü ildə 62, 1929-1930-cu illərdə 112, 1931-ci ildə isə 245 Azərbaycan məktəbi fəaliyyət göstərib. Həmin dövrdə 113 azərbaycandilli məktəbəqədər təhsil müəssisəsi mövcud olub. 1981-1982-ci tədris ilində Qərbi Azərbaycanda 155 azərbaycandilli məktəb, 1986-1987-ci tədris ilində isə 206 azərbaycandilli məktəb fəaliyyət göstərib... Qərbi Azərbaycandakı Azərbaycan məktəblərinin məzunları arasından elmin müxtəlif sahələrini əhatə edən 10 akademik, akademiyanın 9 müxbir üzvü, 140 elmlər doktoru və 740 elmlər namizədi yetişib.**

“Sonrakı dövrlərdə Ermənistanda bərqərar olan sovet hakimiyyətinin ilk illərində Qərbi Azərbaycan üzrə 1922-1923-cü illərdə 36, 1924-cü ildə 62, 1929-1930-cu illərdə 112, 1931-ci ildə isə 245 Azərbaycan məktəbi fəaliyyət göstərib. Həmin dövrdə 113 azərbaycandilli məktəbəqədər təhsil müəssisəsi mövcud olub. 1981-1982-ci tədris ilində Qərbi Azərbaycanda 155 azərbaycandilli məktəb, 1986-1987-ci tədris ilində isə 206 azərbaycandilli məktəb fəaliyyət göstərib”. Bu rəqəmləri “Qərbi Azərbaycana qayıdış” festival-konqresdəki çıxışı zamanı elm və təhsil naziri Emin Əmrullayev xatırlatdı. Nazir həmçinin vurğuladı ki, Qərbi Azərbaycandakı Azərbaycan məktəblərinin məzunları arasından elmin müxtəlif sahələrini əhatə edən 10 akademik, akademiyanın 9 müxbir üzvü, 140 elmlər doktoru və 740 elmlər namizədi yetişib. Emin Əmrullayev ali təhsil proqramlarına Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, folkloru, toponimləri, İrəvan Müəllimlər Seminariyası ilə bağlı dərslərin, seçmə fənlərin daxil edilməsinin olduqca vacib olduğunu bildirib. Azərbaycanın elm və təhsil müəssisələrində Qərbi Azərbaycan tarixinin araşdırılması sahəsində ardıcıl, sistemli tədqiqatların aparılması və elmi-tarixi nəzəri əsərlərin yaradılması zərurətini qeyd etdi.

Onu da faktlar təsdiq edir ki, təhsilin canlanması ilə ədəbiyyatın xüsusilə, aşıq ədəbiyyatının inkişafı İrəvan və ümumilikdə Qərbi Azərbaycan ədəbi mühitinin formalaşmasına təkan verirdi. Bu isə aşıq məktəbinin nümunəsində qabarıq görünürdü. Göyçə aşıq məktəbinin nümayəndələri Miskin Abdal, Aşıq Allahverdi, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Məhərrəm, Aşıq Əziz, Aşıq Musa, Gümrü aşıq məktəbindən Aşıq Tüccarı, Aşıq Şenlik, Aşıq Beymurazı, Şirəkli Həsən və digərləri nəinki bütövlükdə Azərbaycanda, həmçinin Türkiyə, İraq və İranda məşhur idilər.

“Qərbi Azərbaycana qayıdış” festival-konqresdəki çıxışları xatırlayıram. Bu xüsusda Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli Qərbi Azərbaycana qayıdış ideyasının ilk dəfə beynəlxalq müstəviyə çıxarıldığı, dünyanın bir çox ölkələri, beynəlxalq qurumları, həmçinin ayrı-ayrı siyasətçilərinə məktub və müraciətlər ünvanlandığını deyir, ümumilikdə icmanın 225 bəyanat qəbul etdiyini vurğulayırdı. Bütün bu fəaliyyətin intensiv olduğu qədər də ardıcıllığı Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin dönməz iradəsinə bağlılığından xəbər verirdi. Hər bir dövlət ali siyasi iradəsinin ifadəsi olduğu xalqın, ilk növbədə, başlıca əvəzolunmaz təminatçısıdır. Maraqlıdır ki, bu fikir festival-konqresdə “Qərbi Azərbaycana qayıdış” olimpiadasının qalibi olmuş şagirdlərin mükafatlandırılması zamanı qəribə məmnuniyyət yaşatdı və etiraf edim ki, qürurla dalğalanan bayrağımıza sevgi və minnətdarlıqla baxdım. Belə ki, “Qərbi Azərbaycana qayıdış” olimpiadasında ölkəmizin müxtəlif bölgələrindən 10 mindən çox şagird iştirak edirdi. Onlar Qərbi Azərbaycanın tarixi, coğrafiyası, mədəni irsi, toponimləri, tarixi şəxsiyyətləri ilə bağlı biliklərini nümayiş etdirib və festival-konqres başlamazdan iki gün öncə Naxçıvan Dövlət Universitetində 36 şagirdin iştirakı ilə olimpiadanın final mərhələsi olmuşdu. Həmin final mərhələsində yeniyetmə və gənclərimizin biliyi, dünyagörüşü ilə bərabər, vətənpərvərliyi qəlbimi silkələdi və bu nəslin Heydər Əliyevin vəsiyyətlərinə layiq şəkildə yetişən, Prezident İlham Əliyevin siyasəti ilə çiçəklənən Azərbaycanı təmsil edəcəkləri fikrini yaşamaq xoş idi.

Festival-konqresdə Qərbi Azərbaycanda yaşamış və yenə də yaşayacaq soydaşlarımızın yaradaraq yaşatdığı mədəniyyəti təbliğ etməklə yanaşı, böyük qayıdışa elm və təhsil ictimaiyyətinin dəstəyinin ifadəsi kimi ölkəmizin müxtəlif universitet, akademiya və elmi-tədqiqat institutlarında, həmçinin Türkiyə universitetlərində fəaliyyət göstərən tədqiqatçıların bir araya gəldiyini görmək də xoş idi.

Yeri gəlmişkən, festival-konqresdə iştirak edən Türkiyənin İğdır Universitetinin rektoru professor Mehmet Hakkı Alma çıxışı maraqlı araşdırmanın təqdimatı ilə diqqət çəkdi. Bu, İnkişaf Agentliklərinin Baş Direktorluğu, Sərhəd İnkişaf Agentliyi və İğdır Universitetinin Zəngəzur dəhlizinin regional inkişaf və regional inkişaf artımının strateji əməliyyatı ilə bağlı seminarın hesabatındakı məqamları ifadə edirdi. Rektor Naxçıvanın sadəcə Azərbaycan və Türk dünyası üçün deyil, bütün dünya üçün önəmli bir coğrafiya olduğunu fakt və sənədlərin dili ilə təqdim etdi. İşə düşəcəyi hətta düşmən ölkədə şübhə doğurmayan və türk-islam mədəniyyəti tarixinin önəmli parçası olan Zəngəzur dəhlizinin Avropa və Asiyanı birləşdirən mühüm bir körpü rolunu oynayacağı fikri isə gözlərimin önündə regionda 250 il əvvəl mövcud olmuş mənzərəni canlandırdı.

Bu, həmin mənzərə idi ki, o zamanlar İrəvandan müxtəlif karvan yolları keçirdi. Bunlardan biri Hindistan, Mərkəzi Asiya və İranı Təbriz və Naxçıvan vasitəsilə İrəvan xanlığına bağlayan karvan yolu idi. Bu karvan yolu “Ərzurum yolu” və ya “Bəzirgan yolu” adlanırdı. İrəvandan Ərzuruma gedən digər karvan yolu Abaran və Alagöz dağının şimal ətəyindən keçib Qarsa, oradan da Həsənqalaya yetişir və burada ana xəttə qovuşurdu...

# PEŞƏ TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ QƏBUL

## İyulun 22-si işə qəbul başladı, ayın sonunda isə tələbə qəbuluna start veriləcək

**"8 peşə təhsili müəssisəsi artıq adambaşı maliyyələşmə sisteminə keçib. Bu istiqamətdə proses davam etdiriləcək. Bu il 9 yeni peşə ixtisasının yaradılması planlaşdırılır" və s. Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmovun peşə təhsili səviyyəsində gözlənilən yeniliklər, həmçinin başlamaq üzrə olan tələbə qəbulu və hazırda davam edən müəllimlərin işə qəbulu ilə bağlı son xəbərlərlə zəngin brifinqi həftənin ən maraqlı mövzularından oldu.**



### Peşə təhsili müəssisələrində işləmək istəyənlər *portal.edu.az* -da birləşdi

İyulun 22-dən etibarən 2024-2025-ci tədris ili üçün Peşə Təhsili üzrə Dövlət Agentliyinin (PTDA) tabeliyində olan peşə təhsili müəssisələrinə ixtisas fənn müəllimləri və istehsalat təlimi ustalarının işə qəbulu müsabiqəsinə start verilib. Peşə təhsili müəssisələrində ixtisas fənn müəllimi və istehsalat təlimi ustası kimi çalışmaq istəyən şəxslər ixtisaslaşdıqları istiqamət üzrə ayın 29-dək olan bir həftə müddətdə *https://portal.edu.az* elektron müraciət portalı vasitəsilə qeydiyyatdan keçməlidirlər. Müsabiqə çərçivəsində Bakı və regionlarda yerləşən peşə təhsili müəssisələri üzrə 551 ixtisas fənn müəllimi, 574 istehsalat təlimi ustası, 82 yüksək texniki peşə təhsili səviyyəsi üzrə vakansiya elan olunması proqnozlaşdırılır. Cari ildən etibarən ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında yerləşən peşə təhsili müəssisələrinə də işə qəbul prosesi mərkəzləşdirilmiş müsabiqə vasitəsilə aparılır.

### 5 mərhələdə müsabiqə

İxtisas fənn müəllimləri və istehsalat təlimi ustalarının işə qəbulu müsabiqəsi 5 mərhələdə - elektron ərizələrin qəbulu, təqdim edilən məlumatların müsabiqənin şərtlərinə uyğunluğunun müsabiqə komissiyası tərəfindən yoxlanılması, test imtahanı, vakant yerlərin seçilməsi və müsahibə mərhələlərindən ibarətdir. Ərizələri təsdiq edildikdən sonra 2 avqust tarixində ixtisas fənn müəllimi vakansiyası üzrə müraciət edən namizədlər ixtisas modulları üzrə təhsil proqramlarına aid 40, tədris metodikasına və təlim strategiyalarına aid 20, istehsalat təlimi ustası vakansiyası üzrə müraciət edən namizədlər tədris edəcəyi təlim modullarına aid 40, təlim metodikasına və təlim strategiyalarına aid 15, həmçinin əməyin mühafizəsi, təhlükəsizlik texnikası, sanitar-gigiyena və yanğından mühafizə norma və qaydalarına aid 5 sualdan ibarət test imtahanında iştirak edəcəklər. İxtisas fənn müəllimi və istehsalat təlimi ustası üzrə test imtahanında ümumi 40 bal və daha yüksək nəticə göstərən müraciət edənlər vakant yerlərin seçiminə buraxılır. Namizədlərə maksimum 8 vakant yer seçmək imkanı verilir.

İmtahanlar Bakı, Gəncə, Sumqayıt və Naxçıvanda keçiriləcək.

Müsahibə mərhələsində namizədlərin ümumi dünyagörüşü, peşə keyfiyyətləri, ünsiyyət, təlimi planlaşdırma, təlimin təşkilində istifadə olunan forma və üsulları tətbiq etmək bacarığı komissiya tərəfindən yoxlanılır. Müsahibənin nəticəsinə əsasən, namizədin vəzifəyə uyğun olub olmaması barədə qərar verilir. Müraciət edənlərin vakant yerlərə yerləşdirilməsi elektron ərizələrində qeyd etdikləri seçim ardıcıllığı gözlənilməklə aparılacaq.

Sonuncu mərhələ isə nəticələrin rəsmiləşdirilməsidir. Avqustun 15-18-də vakant yerlərə yerləşmək üçün müraciət edəcəklər. Rəsmiləşmə isə sentyabrın 15-də aparılacaq.

### Kimlər müraciət edə bilər?

Peşə təhsili müəssisələrinə ixtisas fənn müəllimlərin və istehsalat təlimi ustalarının işə qəbulu müsabiqəsinə qanunvericiliklə müəyyənləşdirilən müvafiq tələblərə uyğun namizədlər müraciət edə bilər. Həmin tələblərə görə, işə orta ixtisas və ya ali təhsilli, ixtisası üzrə istehsalat və xidmət sahələrində ən azı 1 il əmək stajı olan şəxslərin və peşə, orta ixtisas və ya ali təhsilli, ixtisası üzrə istehsalat və xidmət sahələrində ən azı 5 il əmək stajı olan mütəxəssislərin qəbulu nəzərdə tutulub.

### 1200-dən çox vakansiya var

İşə qəbul müsabiqəsi çərçivəsində uğur qazanan şəxslər Bakı və regionlarda yerləşən peşə təhsili müəssisələrində çalışacaqlar. Ceyhun Kərəmovun sözlərinə görə, istehsalat təlimi ustaları və fənn müəllimləri üçün 1200-dən çox vakansiya var: "Ümumilikdə, 551 ixtisas fənn müəllimi, 574 istehsalat təlimi ustası, 82 yüksək texniki peşə təhsili səviyyəsi üzrə vakansiya elan olunması proqnozlaşdırılır. Qeyd edim ki, bu ildən etibarən ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında yerləşən peşə təhsili müəssisələrinə də işə qəbul prosesi mərkəzləşdirilmiş müsabiqə vasitəsilə aparılır".

### Tələbə qəbulu tezliklə başlayacaq

"Peşə təhsilinə qəbulda artım müşahidə edilir. Bu artım 2022-ci ilə nisbətdə müşahidə olunan rəqəmlərin ortaya çıxardığı fərqdir", - deyən C.Kərəmovun sözlərinə görə, 2023-cü ildə 50 faiz tələbə artımı olub.

İyulun sonunda isə 2024-2025-ci tədris ilində peşə təhsili müəssisələrinə tələbə qəbulu başlanılacaq və üç mərhələdə aparılacaq.

Sadəcə tələbə sayı yox, yenilənən, müasirləşən peşə təhsili müəssisələrinin də sayı artır. Bu yaxınlarda Lənkəranda və Bakıda yeni peşə təhsili müəssisələrinin tələbələrin ixtiyarına veriləcəyini deyən C.Kərəmov müəssisələrdə tədrisi nəzərdə tutulan yeni ixtisaslardan da danışıb: "Bu il 9 yeni peşə ixtisasının yaradılması planlaşdırılır".

Onun sözlərinə görə, bu ixtisasların sənayenin tələbinə uyğun olaraq alternativ enerji mənbələri, xüsusən günəş enerjisi istiqamətində olması nəzərdə tutulur.

**Ruhiyyə DAŞSALAHLI**

# Psixoloq: Tələbə adını qazanmasa da...

**"Təəssüflər olsun ki, bəzi ailələr imtahan məsələsində övladlarını aşırı dərəcədə psixoloji təsir altında saxlayırlar ki, bu da uşaqların özlərini daim gərgin və stresli hiss etməsinə gətirib çıxarır"**



Ali məktəbə qəbul olmaq, sevdiyi ixtisasa yiyələnmək yeniyetmələrin ən böyük arzusudur. Amma təəssüf ki, hər bir gəncə də elə həmin il tələbə adını qazanmaq nəsib olmur, tələbəlik ilə bağlı qurduğu xəyallar puça çevrilir. Bundan başqa, öz sinif yoldaşlarının, eləcə də tanıdığı yaşıdlarının ali məktəbə qəbul olunduğunu görəndə depressiyaya düşür, ruh düşkünlüyü, stres yaşayırlar. Çox vaxt da valideynlərinin töhməti, danlağı ilə üzləşmək istəməyən gənclərimiz nə edəcəyini bilmir, bəzən evdən çıxıb gedir, bəzən isə çıxış yolunu intiharda görürlər.

### Bəs necə etmək lazımdır ki, yeniyetmələrimiz onlar üçün ağrılı olan bu dönəmi daha sakit və stressiz yaşasınlar?

Məsələnin aktuallığını nəzərə alaraq Psixologiya Elmi-Tədqiqat İnstitutunun Psixoloji Xidmət və Reabilitasiya Mərkəzinin direktoru psixoloq Zeynəb Əliyevanın bu dəfə qəbul imtahanlarından sonra ali məktəblərə qəbul olma ehtimalı az olan gənclərimizlə bağlı fikirlərini, məsləhət və tövsiyələrini diqqətə çatdırırıq.

### Bir imtahan nəticəsindən asılı olmayan həyat

- Bilirsiniz, həyat bir imtahan nəticəsindən asılı deyil. Nə qədər keşməkeşli olsa belə, hər səhvin bizlərə bir təcrübə qazandırdığı və bu təcrübə ilə irəlidə daha da gözəl addımlar atmağımıza səbəb olan bir yoldur.

Təəssüflər olsun ki, bəzi ailələr imtahan məsələsində övladlarını aşırı dərəcədə psixoloji təsir altında saxlayırlar ki, bu da uşaqların özlərini daim gərgin və stresli hiss etməsinə gətirib çıxarır. Yeniyetmələr düşünürlər ki, ali məktəbə qəbul imtanlarında az bal toplamaq həyatın sonudur. "Heç kimin üzünə baxa bilmərəm", "mən çox zəifəm, bacarıqsızam", "ailəmə layiq deyiləm", "onların inamını itirdim" və s. yanlış düşüncələrə qapılırlar ki, bu da onların həyatlarına belə qıymalarına gətirib çıxarır. Halbuki valideynlərin missiyası övladlarının bu yanaşmasının yanlış olduğunu göstərmək, onlara həyatın sadəcə bir universitetdən ibarət olmadığını başa salmaqdır. Anlamaq lazımdır ki, tələbə adını qazanmamaq dünyanın sonu demək deyil.

### Əslində isə...

Zeynəb Əliyevanın fikrincə, biz övladlarımızı həyatın bütün çətinliklərinə öyrətməli, insan iradəsinin ən çətin situasiyalarda belə maksimalist addım atmalı olduğuna inandırmalıyıq. Adətən daha çox rastlaşdıqları mənzərələrdən birinin də sonadək öz arzu və istəyinin arxasınca getməyən gənclər olduğunu və bunu da onların yenidən cəhd etmə qorxusunun olmasında, cəsarətli olmamasında görən psixoloq əslində bu yanaşmanın yanlış olduğunu söyləyir:

"Belə gənclər istər gələcək iş, istərsə də ailə həyatında ilk problemlə qarşılaşdıqları zaman qaçmağı seçirlər və stresə davamlılıqları olmur, qarşılarına çıxan müxtəlif çətinliklərlə mübarizə apara bilmirlər. Belə bir düşüncə tərzi ilə ixtisas seçdikləri zaman "az bal toplasam da yetər ki, haraya olursa-olsun qəbul olum, növbəti ilə qalmayım" düşüncəsi ilə seçim edib sonra qəbul olduqları ixtisası sevmədən oxumaq məcburiyyətində qalan gənclərimiz sonda həmin sahədə çalışmaq istəmirlər".

### Övladlarınızdan sevginizi və diqqətinizi əsirgəməyin...

Psixoloq qeyd edir: "Əziz valideynlər yaşadığınız çətinliklərdın asılı olmayaraq övladlarınızı sevin və onları diqqətlə dinləyib, anlamağa, nə hiss etdiklərini duymağa çalışın. Valideynlər övladlarına daim dəstək olmalı, nə olursa-olsun onlara olan sevgilərinin azalmayacağını izah etməli, hər zaman onların yanında olduqlarını hiss etdirməlidirlər. Bu zaman gənclərimiz yenidən cəhd etməkdən qorxmaz, imtahanın nəticəsinin necə olmasından asılı olmayaraq, hədəflərindən imtina etməzlər. Bu da onların xarakterik xüsusiyyətlərinə çevrilərək həyat yolunda qarşılaşdıqları ilk çətinliklərdə qaçmağı deyil, mübarizə aparmağı öyrədəcəkdir".

**Samirə KƏRİMOVA**

# Dövlət Proqramı iştirakçısı "Qlobal Tələbə Mükafatı"nın TOP 50 finalçısı siyahısında yer alıb



**"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində Oksford Universitetində "Siyasət elmləri" ixtisası üzrə magistratura səviyyəsində təhsil alan Nuranə Məmmədova "Qlobal Tələbə Mükafatı"nın (Global Student Prize) TOP 50 finalçısı siyahısında yer alıb.**

"Azərbaycan müəllimi" xəbər verir ki, Dövlət Proqramı təqaüdçüsü Nuranə Məmmədova Chegg.org və Varkey Fondu tərəfindən təşkil edilən Qlobal Tələbə Mükafatının TOP 50 finalçısı siyahısına daxil edilib.

Həmin müsabiqənin finalçıları 176 ölkədən olmaqla, 11 mindən çox iştirakçı arasından seçiliblər. Yekun siyahıda cəmi 30 ölkənin təmsilçiləri yer alıb. Azərbaycan Respublikası bu siyahıda Nuranə Məmmədovanın təmsilçiliyi ilə vurğulanıb.

Qeyd edək ki, finalçılar akademik nailiyyətləri, yaşıdlarına təsirləri, icmalarında və onun hüdudlarından kənarda təsir seçim meyarlarına, o cümlədən yaradıcı və innovativ yanaşmaları və qlobal vətəndaş kimi necə fəaliyyət göstərmələrinə görə qiymətləndiriliblər.

Qlobal Tələbə Mükafatının əvvəlki qaliblərinin mükafatlarını ABŞ-nin sabiq Prezidenti Bill Klinton, Papa Fransisk və digər nüfuzlu şəxslər təqdim ediblər.

Qeyd edək ki, Nuranə Məmmədova Şəmkir şəhər Cahangir Rüstəmov adına tam orta məktəbi fərqlənmə ilə bitirdikdən sonra bakalavriat səviyyəsi üzrə təhsilini Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dövlət Aqrar Universitetində alıb. Nuranə Məmmədova magistratura təhsilini Fransa, Almaniya və Türkiyədə fərqlənmə ilə bitirib. Hazırda Oksford Universitetində diplomatiya üzrə magistr təhsilini yekunlaşdırmaq üzrədir və həmin universitetdə doktorant kimi akademik təhsilini davam etdirməyə dəvət alıb. Qlobal uğurlarından biri də 2019-cu ildə ABŞ-nin Denver Universitetinin versiyasına görə dünyanın 13 qadın liderinin siyahısında yer almasıdır.

# Şagirdlərimiz Beynəlxalq Kopernik olimpiadasında 36 medal qazanıblar



**Azərbaycanlı şagirdlər ABŞ-nin Nyu-York ştatında Beynəlxalq Kopernik olimpiadasının riyaziyyat üzrə final mərhələsində iştirak ediblər. Kolumbiya Universitetində təşkil edilən final mərhələsində komandamız yüksək nailiyyət əldə edib. Belə ki, Azərbaycanın müxtəlif məktəblərinin 3-11-ci siniflərində oxuyan şagirdlərimiz 6 qızıl, 20 gümüş, 10 bürünc medal qazanıblar.**

"Azərbaycan müəllimi"nə verilən məlumata görə, olimpiadada 14-18 iyul tarixlərində dünyanın 54 ölkəsindən 1000-dən çox şagird qalib adı uğrunda mübarizə aparıb. Azərbaycan millisi 5 kateqoriyada 42 istedadlı şagird ilə təmsil olunub.

İki şagirdimiz bütün rəqiblərini qabaqlayaraq, ən yüksək mükafata layiq görülüb. Belə ki, Sadıq Sadiqli dünya ikincisi, Turab Haqverdiyev dünya üçüncüsü adını qazanıb.

Mükafatlandırma mərasimində iştirak edən Azərbaycan Respublikasının ABŞ-dəki səfirliyinin nümayəndəsi Sənan Fərəcov ölkəmizin şagirdlərinə baş çəkib, səlahiyyətli səfirimiz Xəzər İbrahimin təbriklərini şagirdlərimizə çatdırıb.

Qeyd edək ki, Kopernik Olimpiadası 2020-ci ildə ABŞ-nin Texas Ştatının Hyuston şəhərinə təhsil sahəsində beynəlxalq təcrübəyə malik pedaqoqlar tərəfindən təsis edilib. Kopernik adı bir vaxtlar Yerin Kainatın mərkəzi olduğuna dair iddianın əksinə olaraq, planetlərin Günəş ətrafında fırlanması ilə bağlı inqilabi nəzəriyyəni irəli sürən məşhur polşalı riyaziyyatçı, fizik və astronom Nikolay Kopernikdən götürülüb. Kopernik olimpiadasında dünyanın hər yerindən olan tələbələr fizika, astronomiya, təbiət elmləri və riyaziyyat üzrə öz bilik və bacarıqlarını sınaqdan keçirirlər. Ötən il Azərbaycan yığması dünya birincisi adına layiq görülmüşdü. Onlar bu il də eyni uğuru təkrarlayıblar.

# "Gələcəklə bağlı hədəflərim, planlarım var"

## "Maarifçi" təcrübə proqramının məzunu Nurlan Əsədzadənin uğur hekayəsi

**Elm və Təhsil Nazirliyində əmək fəaliyyətinə başlayan "Maarifçi" təcrübə proqramının məzunlarından biri də Nurlan Əsədzadədir. O, "Azərbaycan müəllimi"nə keçdiyi imtahanlardan, qazandığı uğurlardan, seçilən olmasının sirlərindən danışıb.**



### Nurlan kimdir?

Nurlan hələ 21 yaşındadır. Bu yaşda bir insanın nəyə nail olması mümkündürsə, o da bacarıb. Bakıdakı 140 nömrəli tam orta məktəbdən məzun olub. Tələbəliyə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində iqtisadiyyat və menecment fakültəsində başlayıb. Bakalavr təhsilini bitirən kimi yenidən Dövlət İmtahan Mərkəzinə baş vurub. Nəticə uğurlu olub və bu il magistranturanı qazanıb. İndi Azərbaycan Dövlət İqtisad Universitetinin magistridir. O, burada "Biznesin idarə edilməsi və rəqəmsal marketinq" ixtisası üzrə təhsil alacaq. Doktorant da olmaq istəyir. Yeni hədəfi budur: "Gələcəklə bağlı hədəflərim, planlarım çoxdur. Magistratura təhsilimi bitirib növbəti təhsil səviyyəsi - doktoranturaya müraciət edəcəyəm. Doktorant sonra iqtisad üzrə fəlsəfə doktoru olmaq istəyirəm. Xarici dil biliyimi artırmaq, ingilis dili üzrə bu il üçün beynəlxalq dil sertifikatı almaq əsas hədəfimdir. Sonra marketinq sahəsində beynəlxalq səviyyədə peşəkarlığa sahib olmaq, beynəlxalq sertifikatlı yaxşı bir mütəxəssisə çevrilmək, seçdiyim yolda yaxşı kadr kimi yetişmək başlıca məqsədlərimdəndir".

### Görəsən, Nurlan kimdir? - sualına onun cavabı nə olardı?

Nurlan hesab edir ki, kimliyinin formalaşmasında özü ilə yanaşı, vacib kənar amillərin çox böyük rolu var. Məsələn, o, çox böyük payı ailəsinə ayırıb, qalanını müəllimləri, çevrəsi, dostları arasında bölüşdürüb: "Mənə verilən tərbiyə, ailəmdən aldığım həyat dərsi bu günümün təməlidir. Məhz ailəm sayəsində məktəbdə yoldaşlarımdan bir addım irəlidə idim. Universitetdə də fərqlənirdim. Bir sözlə, həyatda akademik göstəricilərdən daha çox lazım olan vacib dərsləri ailəmdən aldım".

Müəllimlərinə minnətdardır: "Çünki düzgün təhsil almağımda onların rolu böyükdür".

Bir şəxsiyyətin formalaşmasında onu əhatə edənlər də önəmlidir, məsələn dostları. Nurlan deyir ki, insan 6 dostunun ortalamasıdır: "Düşünürəm ki, əhatə dairəmin genişliyi, çevrəmin də inkişafa meyilli olması peşəkar formalaşmağımda vacib rola malikdir".

Amma bu prosesdə özünü də unutmur: "Təbii ki, əziyyətim, zəhmətkeşliyim, daim inkişafa açıq olmağım, öyrənməyə meyilli şəxs kimi formalaşmağım da vacib amildir. Yeni layihələrdə iştirak edir, şansları dəyərləndirir, daim fürsətlər axtarıram. Uğur qazanmağımda əsas payı bunlar təşkil edir".

Sadaladıqları inkişafında kompleks şəkildə rol oynayıb. "Yəqin ki, birini digərindən ayrı qiymətləndirmək olmaz", - deyir.

### Çox bilgi sürətli və düzgün qərar verməyə kömək edir

Gənc "Maarifçi" hesab edir ki, məlumatlılıq sürətli qərar vermə üçün vacibdir: "Odur ki, istər təhsil alarkən, istərsə də hər hansı proqrama, layihəyə müraciət edərkən, ilk növbədə, bu amilə diqqət edirəm. Şərtlərlə, tələblərlə yaxından tanış oluram və bu, sürətli və düzgün qərar verməyimə kömək edir".

Elə buna görə də yanlış qərarları hələ ki yoxdur. O, belə hesab edir: "Təmkinli biriyəm. Qərar verməzdən öncə məsələ üzərində düşünür, müxtəlif prizmalardan yanaşıram. Ani qərarlar verənlərdən deyiləm. Ona görə də həyatımın keçmiş səhifələrinə baxıb təəssüfləndiyim hallar yoxdur. Doğrudur, səhvsiz insan olmaz, ancaq keçmişə baxıb təəssüfləndiyim, əlimdə fürsətim olsa, geri qayıdıb düzəltmək istədiyim bir yanlışım olmayıb".

Amma qərar verməkdə çətinlik çəkdiyi halları da xatırlayır: "Düşünürəm ki, çətin qərarlarda da doğru seçim edə bilmişəm. Bunlardan biri öz ixtisasımı seçməyimdir. İxtisas seçimi zamanı II ixtisas qrupunda yer alan iqtisadiyyat yönümlü bir neçə mənim üçün maraqlı yerdən özümə ən yaxın olan marketinqi seçdim və bu gün hələ də bu qərarımdan əminəm. Hazırda rəqəmsal marketinq sahəsinə yiyələnirəm, öz üzərimdə işləyirəm, daim öyrənirəm. Düşünürəm ki, günün trend sahələrindən biri də marketinqdir və nə yaxşı ki bu sahəni seçmişəm".

### Ən həyəcanlı imtahanı

Hələ cəmi 21 yaşı olduğuna baxmayaraq, artıq 50-dən çox məsuliyyətli imtahandan keçib: "Həyatımda imtahanlar çox olub. Müxtəlif çətinlik dərəcəsi olan imtahanlardan keçmişəm: təcrübələr, layihələr üçün müsabiqələrə qatılmışam. Onlardan ən həyəcanlısı Elm və Təhsil Nazirliyində "Maarifçi" Tələbə Təqaüd Proqramına müraciət zamanı həyata keçirilən imtahan oldu. Proqramda ilkin tanışlıq, test və müsahibə mərhələsində uğurla iştirak edərək 2000 namizəd arasından seçilən 28 "Maarifçi"dən biri odum".

### Niyə onu seçirlər?

Nurlan seçdiyi kimi, seçilirdə. Seçilənlərdən olmasının səbəbi iştirak etdiyi layihə və təcrübələrin qazandırdığı bacarıqlardır: "Liderlik, problem həll etmək, komanda ilə işləmək bacarıqları ilə yanaşı, insanları anlaya bilmə, başqalarının hisslərini başa düşmək də çox önəmlidir. Lider ruhlu biriyəm və bu da uğur qazanmağımda səbəblərdən biridir. Komanda da fikir formalaşdıran, hər hansı iş zamanı söz sahibi mənəm. Bunu görürəm, ancaq tək öz fikirlərimi də diktə etmirəm, öz komanda yoldaşlarımın fikirlərini qiymətləndirirəm.

Seçilməsində daha bir vacib amil onun həyəcanını idarə edə bilməsidir. Necə? Gənc deyir: "XI sinifdə DİM-in buraxılış imtahanına gedəndə həyəcanımı xatırlayıram. Məsuliyyətli imtahanlara girəndə hamı həyəcanlanır ki, bu da təbiidir. Amma o həyəcanın öhdəsindən gəlmək mümkündür. İmtahana, müsahibələrə, ümumiyyətlə, hər hansı seçimə yaxşı hazırlaşıb, detallarına qədər öyrənib qatılırsansa, burada uğur qazanmağına həyəcanın mane olmasına yol verə bilməzsən. Həyəcanı idarə etməlisən.

### Fəal ol, uğur qazan

Özü kimi gənclərə, yeniyetmələrə fəal olmağı tövsiyə edir: "Bəzən şagird və tələbələr akademik nəticələrinə elə köklənir ki, dərsdən sonrakı saatlarında fəallıq göstərə bilmir, hər hansı başqa bacarıqlara yer qalmır. Məktəbdə də, universitetdə də fəallardan olmuşam. Məsələn, məktəbdə həm yaxşı oxuyur, həm də rəqs məşğələlərinə qatılırdım. Rəqsə getdiyim 6 il ərzində hətta Heydər Əliyev Sarayında çıxış belə etmişdim. Ali məktəbə gəlincə, yüksək göstəricilərlə - 95 ortalama ilə bakalavr təhsilimi bitirmişəm. Universitetdə təşkil olunan elmi-texniki konfranslarda fəal iştirak etmişəm, 2 il dalbadal məqalələrim və elmi tezislərim çap olunub. Dövlət Vergi Xidmətinin təşkil etdiyi Vergi olimpiadasının qaliblərindənəm. "Yüksəliş" proqramının mentorluq layihəsi çərçivəsində ölkə üzrə seçilən 18 tələbədən biriyəm. "Bir könüllü", "ASAN xidmət", Dövlət Miqrasiya Xidmətlərində 3, 6, 9 ay könüllülük fəaliyyətlərim olub. İxtisasımla bağlı təcrübələrdə iştirak etmişəm. "Azərsun Holdinq", "ASAN xidmət", Beynəlxalq Bankda təcrübələr keçmişəm".

N.Əsədzadənin fikrincə, hədəfə doğru məqsədyönlü davranış uğurların açarıdır: "Şərtləri düzgün qiymətləndirir, doğru zamanda doğru yerdə olmağa çalışıram. Bu da mənə uğur qazanmağımda kömək edir".

**Ruhiyyə DAŞSALAHLI**

# Bakı Avrasiya Universiteti

## aşağıdakı kafedralarda kafedra müdiri vəzifələrini tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**İqtisadiyyat kafedrası, Biznes və menecment kafedrası**

Müvafiq kafedranın profilinə uyğun yüksək peşə-ixtisas hazırlığına, elmi ad və dərəcələrə, lazımi elmi-pedaqoji, idarəetmə təcrübəsinə, yüksək mənəvi keyfiyyətlərə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin müvafiq qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları müsabiqədə iştirak edə bilərlər.

Müsabiqə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları” və “Bakı Avrasiya Universitetində dekan, kafedra müdiri, dekan müavini və professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə”yə uyğun olaraq aparılır. Müsabiqədə iştirak etmək istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidir:

- rektorun adına ərizə;
- kadrlar uçotunun şəxsi vərəqəsi;
- tərcümeyi-hal;
- ali təhsil haqqında diplomun surəti;
- elmi dərəcə və elmi ad haqqında sənədlərin surəti;
- dərc olunmuş elmi və tədris-metodik işlərin müvafiq qaydada təsdiq edilmiş siyahısı;
- namizədin kafedranın inkişafı ilə bağlı platforması

iddiaçıların tədris prosesinin idarə edilməsi, elmi-pedaqoji fəaliyyəti, tədris prosesində yeni pedaqoji və informasiya-kommunikasiya texnologiyalarının, innovativ təlim üsullarının tətbiqi sahəsində əldə etdiyi təcrübə və nailiyyətləri, ixtisasının artırılması ilə bağlı digər sənədlər onların istəyi ilə əlavə olaraq təqdim edilə bilər.

Ali təhsil və elmi dərəcə haqqında sənədlər başqa ölkədə verildiyi halda ekvivalentlik haqqında müvafiq sənəd təqdim edilməlidir.

Sənədlərin qəbulu elanın dərc edildiyi tarixdən 1 (bir) ay müddətinə aparılır.

Müsabiqədə iştirak etmək üçün sənədlər ərizə ilə birlikdə universitetin *info@baau.edu.az* elekron ünvanına təqdim olunmalıdır.

**Ünvan:** *AZ 1110, Bakı şəhəri, akademik Həsən Əliyev küçəsi, 135 A*

**Əlavə məlumat üçün:** *+99412 564 63 67; +99412 564 63 65 (daxili nömrə 108); info@baau.edu.az*

**Rektorluq**


**“AZƏRBAYCAN MÜƏLLİMİ”**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan nəşriyyatı” MMC, 9-cu mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 39285 **Sifariş** 1670
**Məsul növbətçi:** Ş.Cəfərov




# Etibarsız sayılır



**Ağcabədi Pedaqoji Kolleci** tərəfindən 2023-cü ildə Rəhimova Quba Azər qızına verilmiş AA-196992 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Siyəzən şəhər** 6 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Əhmədov Azər Bəhmən oğluna verilmiş A-656835 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Hazırəhmədli kənd tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Məsiyeva Aruzə İsaq qızına verilmiş A-028526 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Qızılkənd kənd tam orta məktəbi 1991-ci ildə bitirmiş Bəylərova (Vəliyeva) Nadilə Məhəmməd qızına verilmiş A-083784 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ukrayna Milli Mülki Müdafiə Universiteti** tərəfindən 2015-ci ildə Əliyev Orxan Fəhrad oğluna verilmiş B15-179086 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 275 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Paşayev Əliyar Kamil oğluna verilmiş B-480806 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən (keçmiş Azərbaycan Müəllimlər İnstitutu) 2006-cı ildə Abdullayeva Aynurə Telman qızına verilmiş B-059168 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2014-cü ildə İsmayıllı Saleh Rəfail oğluna verilmiş A-040374 nömrəli bakalavr diplomuna əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 6 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Qardaşbəyova Fayina Mühübəli qızına verilmiş E-034943 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Varxankənd kənd tam orta məktəbi 2018-ci ildə bitirmiş Ulfanov Ramazan Tahir oğluna verimiş E-116008 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2022-ci ildə Qasımov Teymur Habil oğluna verilmiş C-146701 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1991-ci ildə Abdinov Camal İdris oğluna verilmiş УВ-I-120552 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu** tərəfindən 1998-ci ildə Nəcəfova Səadət Xudaəsəd qızına verilmiş AB-I-055279 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Plan Uçot Texnikumu** tərəfindən 1981-ci ildə Şabanov Şaban Mali oğluna verilmiş БТ-592674 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Qızılhacılı qəsəbə 2 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Zeynalova Samirə Səməd qızına verilmiş A-118545 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Dövlət Universiteti** tərəfindən 2022-ci ildə Şiriyev Ümin Dadaş oğluna verilmiş C-153292 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 103 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Səfərov Asif Füzuli oğluna verilmiş E-136734 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2004-cü ildə Muradov Vüqar Vəli oğluna verilmiş B-013006 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası** tərəfindən 2010-cu ildə Məmmədova Xuraman Yaşar qızına verilmiş B-171462 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 47 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Həsənov Cavid Vüqar oğluna verilmiş E-002828 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Mirqurbanlı kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Ağalarov Mirramil Ramiq oğluna verilmiş A-336993 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 2 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Salahova (Əliyeva) Afaq Cavad qızına verilmiş A-125707 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 1 nömrəli Humanitar fənlər təmayüllü məktəb-liseyin IX sinfini 1991-ci ildə bitirmiş Quliyeva Aygün Mülkədar qızına verilmiş A-849538 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qərb Universiteti** tərəfindən 2016-cı ildə Əkbərova Nilgün Süleyman qızına verilmiş A-093727 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 14 nömrəli tam orta məktəbin IX sinfini 1988-ci ildə bitirmiş Abiyev Ramiz Sabir oğluna verilmiş A-322602 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2021-ci ildə Əliyev Fərman Vüqar oğluna verilmiş C-100412 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 26 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Əliyev Fərman Vüqar oğluna verilmiş E-009880 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2006-cı ildə Bəşirov Şahin Bəşir oğluna verilmiş B-068149 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2018-ci ildə Hüseynzadə Ləman Tarverdi qızına verilmiş C-007985 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 159 nömrəli tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Hacıməmmədov Akif Nurməmməd oğluna verilmiş A-129485 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Almalı kənd tam orta məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Əlizadə Coşqun Habil oğluna verilmiş C-536165 nömrəli ümumi orta təhsil haqqında şəhadətanmə itdiyi üçün etibarsız sayılır.

**Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi** tərəfindən 2022-ci ildə Damadlı Samir Damad oğluna verilmiş A-163581 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2018-ci ildə Ağhapour Ghadiminezhad Amirata Esmail oğluna verilmiş TN-011862 nömrəli hazırlıq kursu şəhadətnaməsi və 2022-ci ildə verilmiş AT-009146 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**“Xabad Or-Avner” Təhsil Mərkəzini** 2011-ci ildə bitirmiş Şuminov Rafik Şirin oğluna verilmiş A-007038 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2010-cu ildə Axund Aysel Mirzağa qızına verilmiş BB-I-015143 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**“Hədəf Liseyi” MMC-ni** 2024-cü ildə bitirmiş Hacızadə Akif Qalib oğluna verilmiş E-685645 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Boladi kənd 1 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş İbadova Səmayə Hacıbala qızına verilmiş B-645855 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Musiqi Kolleci** tərəfindən 2021-ci ildə Seyidli Ruzi Məhəmməd oğluna verilmiş AA-153045 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Universiteti** tərəfindən 2004-cü ildə Qurbanova Aynur Fərman qızına verilmiş B-024779 nömrəli bakalvr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Novo Saratovka kənd tam orta məktəbi 1992-ci ildə bitirmiş Quliyeva Məhəbbət Qiyas qızına verilmiş A-262548 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 24 nömrəli tam orta məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Əflaki Rəşad Pərviz oğluna verilmiş C-306210 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** nəzdində Musiqi Kolleci tərəfindən 2023-cü ildə Əflaki Rəşad Pərviz oğluna verilmiş AA-187887 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş İsmayılova (Muxtarova) Gözəl Vadil qızına verilmiş A-100476 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Pedaqoji Texnikumu** tərəfindən 1999-cu ildə Cəfərova Nüyvar Tahir qızına verilmiş AB-II-030487 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 201 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Süleymanova Çinarə İlham qızına verilmiş B-012517 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Hacıalılı kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Şirinov Ramin Vəlyəddin oğluna verilmiş 76 nömrəli tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2009-cu ildə Musayev Cavid Əkbər oğluna verilmiş B-147185 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Aşağı Quşçu kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş Məsiyev Fuad Murquz oğluna verilmiş E-633714 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 56 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Əliyeva (Süleymanova) Rumiyyə Teymur qızına verilmiş B-358808 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.